

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ

№25 (615) ■ 4 iyul 2012 www.vergiler.az Qiymәti: 40 qəp.


# Prezident İlham Əliyevin olimpiyaçılarımızla görüşü

## *Heydər Əliyev Mərkəzində Londonda keçiriləcək XXX yay Olimpiya Oyunlarında iştirak edəcək Azərbaycan heyətinin yola salınması mərasimi keçirilib*

***Mərasimdə Azərbaycan Prezidenti İlham Əliyev, ölkə başçısının ailə üzvləri, dövlət və hökumət rəsmiləri, millət vəkilləri, idmançılar iştirak ediblər.***



Tədbirdə çıxış edən Prezident İlham Əliyev Azərbaycan idmançılarının Olimpiya Oyunlarında qələbə qazanacaqlarına əmin olduğunu bildirib. Azərbaycan hökumətinin ölkədə idmanın inkişafı üçün çoxsaylı tədbirlər həyata keçirdiyini diqqətə çatdıran dövlət başçısı idmançıların məişət problemlərinin yüksək səviyyədə həll olunduğunu söyləyib: «İdman bölmələrinə axın kütləvi xarakter alıb. Bizim ölkənin idman şöhrəti artıb, idmanın kütləviliyi təmin edilib. Ölkədə yeni idman infrastrukturu yaradılır. Artıq bəzi ölkələr bu sahədə Azərbaycanın təcrübəsini öyrənirlər. Hər il idmançılarımız Avropa və dünya çempionatlarında yüzlərlə medal qazanırlar».

Prezident İlham Əliyev ölkədə olimpiya mərkəzlərinin tikintisinin davam etdirildiyini qeyd edib. Dövlət başçısının sözlərinə görə, hazırda respublikada 34 Olimpiya Mərkəzi fəaliyyət göstərir, 8 mərkəzin tikintisi isə davam etdirilir. Bununla paralel ölkədə idmanın inkişaf dinamikası da yüksəlir: «Komandamızın idmançılarının əksəriyyəti Olimpiya Oyunlarında ilk dəfədir iştirak edirlər. Gənclərimizin idmana marağı yüksəkdir. Azərbaycan idmançıları bu gün dünyada çox ciddi rəqib hesab olunurlar».

Prezident İlham Əliyev Bakı şəhərində böyük idman infrastrukturunun yaradıldığını da bildirib. Bu il Olimpiya Stadionunun tikintisinə başlanacağına ümid etdiyini deyən ölkə başçısı, bununla yanaşı, müasir üzgüçülük kompleksinin də inşa ediləcəyini vurğulayıb və əlavə edib ki, Azərbaycanda həm Olimpiya, həm də qeyri-olimpiya idman oyunlarının inkişafına böyük diqqət yetirilir.

Dövlətimizin başçısı London Olimpiya Oyunlarına qatılacaq idmançılardan daha çox medal və qələbə gözlədiyini bəyan edib: «Tariximizdə ilk dəfə olaraq, Azərbaycan bu yarışlarda böyük komanda - 53 nəfərlə çıxış edəcək. İdmançılarımızın böyük şansları var. Onlar üçün nəzərdə tutulan mükafat fondu artırılır, idmançıların məişət şəraiti yaxşılaşdırılır. Bilirəm ki, bununla yanaşı, idmançılarımıza stimul verən başlıca amil onların Vətən sevgisidir. Mən 15 ildir Milli Olimpiya Komitəsinin prezidentiyəm. Ölkə prezidenti vəzifəsinə də idman aləmindən gəlmişəm və idmançıları təmsil edirəm».

Sonra Olimpiya andının mətnini oxunub, olimpiyaçılar Azərbaycanın Dövlət Bayrağını öpüblər.

# Bakıda Krans Montana Forumu keçirilmişdir

## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir*

İyunun 29-da Bakıda, Heydər Əliyev Mərkəzində Krans Montana Forumunun rəsmi açılışı olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər. 23-cü dəfə keçirilən Krans Montana Forumunda Gürcüstanın, Makedoniyanın və Monteneqronun dövlət başçıları, xarici ölkələrdən gəlmiş ictimai xadimlər, parlament nümayəndələri, ziyalılar, biznes dairələrinin təmsilçiləri iştirak etmişlər.

Beynəlxalq əməkdaşlıq və dialoqa yardım məqsədilə yaradılan bu qurumun işində Azərbaycan da yaxından iştirak edir. Sivilizasiyaların kəsişdiyi məkanda yerləşən, mədəniyyətlərarası dialoqa töhfələrini əsirgəməyən ölkəmizin fəaliyyəti beynəlxalq səviyyədə, o cümlədən Krans Montana Forumu çərçivəsində layiqincə qiymətləndirilir. 2011-ci ildə Brüsseldə Krans Montana Forumunda Prezident İlham Əliyevin bu təşkilatın ən ali mükafatına - «Prix De La Fondation» mükafatına, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın forumun Qızıl medalına layiq görülmələri bunun əyani nümunəsidir. Krans Montana Forumunun bu il Bakıda keçirilməsinə qərar verilməsi də Azərbaycanın durmadan artan beynəlxalq nüfuzuna, mədəniyyətlərarası dialoqun və beynəlxalq tədbirlərin mərkəzinə çevrilməsinə dəlalət edir.

Mərasimi açan forumun təsisçisi və prezidenti, səfir Jan Pol Karteron Bakıda keçirilən 23-cü illik toplantıda iştirak edən qonaqları salamlayaraq Azərbaycanın sosial, mədəni və humanitar tədbirlərin təşkil olunmasında mühüm rolunu yüksək qiymətləndirmişdir. Cənab Karteron bildirmişdir ki, humanitar forumların keçirilməsində Heydər Əliyev Fondu xüsusi fəallıq göstərir, fond həmçinin müxtəlif təhsil, mədəniyyət ocaqlarında yeniliklər həyata keçirir. Bu cür tədbirlərin təşkilində göstərdiyi xidmətlərə görə, fondun prezidenti, Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya mükafat təqdim ediləcəyini diqqətə çatdırmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev forumda nitq söyləmişdir. Dövlət başçısı qeyd etmişdir ki, Krans Montana Forumunun Azərbaycanda keçirilməsi respublikamızın siyasi-iqtisadi sahələrdə dialoqun keçirildiyi, formalaşdığı yerlərdən birinə çevrildiyini təsdiq edir.

Azərbaycanın müstəqillik əldə etdiyi ötən 20 il ərzində siyasi, iqtisadi, sosial və digər sahələrdə yüksək inkişaf yolu keçdiyini diqqətə çatdıran Prezident İlham Əliyev bildirmişdir ki, ölkəmizdə siyasi və iqtisadi islahatlar bir-birini dəstəkləmişdir və son on il ərzində Azərbaycanda iqtisadi inkişaf dünyada




ən sürətli olmuşdur. Dövlətimizin başçısı Ermənistan tərəfindən işğal olunmuş Azərbaycanın tarixi ərazisi olan Dağlıq Qarabağda bütün tarixi, mədəni abidələrin dağıdılmasından, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması ilə bağlı BMT tərəfindən qəbul olunmuş qətnamələrin hələ də icra olunmamasından, ölkəmizin BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsindən, Avropa İttifaqı ölkələrinin enerji təminatında mühüm rolundan danışmışdır.

Forumda Gürcüstan Prezidenti Mixeil Saakaşvili, Monteneqro Prezidenti Filip Vuyanoviç, Makedoniyanın Prezidenti George Ivanov, Birləşmiş Ərəb Əmirliyinin Füceyra Əmirliyinin şahzadəsi Şeyx Məhəmməd Hamad bin Məhəmməd əl Şərqi, İraqın Baş nazirinin iqtisadi məsələlər üzrə müavini Rouş Nuri Şaveys, Estoniya parlamentinin sədri xanım Ene Erqman çıxış etmişlər. Sonra forumda müzakirələr aparılmışdır.

Həmin gün Prezident İlham Əliyev Krans Montana Forumunda iştirak etmək üçün Bakıya gələn Gürcüstan Prezidenti Mixeil Saakaşvili, Monteneqro Prezidenti Filip Vuyanoviç və Birləşmiş Ərəb Əmirlikllərinin Füceyra Əmirliyinin şahzadəsi Şeyx Məhəmməd Hamad bin Məhəmməd əl Şərqi ilə görüşmüşdür. Görüşlərdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olunmuş və əlaqələrimizin bundan sonra da inkişaf edəcəyinə əminlik bildirilmişdir.

**rəsmi xronika**

## Əlaqələr genişlənir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 2-də Kolumbiya Respublikası Senatının ikinci konstitusional komitəsinin sədri xanım Alexandra Moreno Pirakivenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı xanım Alexandra Moreno Pirakivenin Azərbaycana səfərinin ölkələrimiz arasında əlaqələrin genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etmişdir. Prezident İlham Əliyev Azərbaycan ilə Kolumbiya arasında ikitərəfli münasibətlərin güclü tərəfdaşlıq əlaqələrinə çevrildiyini məmnunluqla qeyd etmişdir. Ölkələrimiz arasında siyasi əlaqələrin razılıq doğurduğunu deyən dövlətimizin başçısı bu əlaqələrin iqtisadi sahədə əməkdaşlığın inkişafı işinə kömək edəcəyinə ümidvar olduğunu bildirmişdir. İkitərəfli münasibətlərin genişlənməsində parlamentlərarası əlaqələrin əhəmiyyətini vurğulayan Prezident İlham Əliyev ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı gələcəkdə də davam etdirəcəyinə əminliyini ifadə etmişdir. Kolumbiya Parlamentinin Azərbaycan ərazilərinin Ermənistan tərəfindən qanunsuz işğalı ilə bağlı qəbul etdiyi qərarın ölkəmiz üçün böyük əhəmiyyət daşıdığını vurğulayan dövlətimizin başçısı qəbul olunan qərara və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı tutduğu ədalətli mövqeyə görə Kolumbiya dövlətinə və xalqına, Kolumbiya parlamentinə və şəxsən xanım Alexandra Moreno Piraquiveyə minnətdarlığını bildirmişdir.

Azərbaycana səfərindən məmnunluğunu ifadə edən xanım Alexandra Moreno Pirakive ölkəsinin Azərbaycanda baş verən inkişaf proseslərini yaxından izlədiyini demişdir. Kolumbiyalı qonaq ölkəsinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasında Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini vurğulamış, münaqişənin beynəlxalq hüquq çərçivəsində həllinə tərəfdar olduğunu bildirmişdir. Kolumbiyanın iqtisadi inkişafı, investisiya imkanlarından danışan xanım Alexandra Moreno Piraquive ölkələrimiz arasında mövcud dostluq əlaqələrini siyasi, iqtisadi, mədəni və digər sahələrdə daha da genişləndirməyin önəmini qeyd etmişdir.

Azərbaycan xalqının böyük tarixə, zəngin mədəniyyətə malik olan Kolumbiya xalqına dost münasibət bəslədiyini vurğulayan Prezident İlham Əliyev bu münasibətləri iqtisadi və mədəni əməkdaşlıq sahələrində daha da möhkəmləndirməyin zəruriliyini qeyd etmişdir. Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Kolumbiya Respublikası arasında dostluq əlaqələrinin inkişafına verdiyi töhfəyə görə xanım Alexandra Moreno Pirakivenin Azərbaycanın ən yüksək dövlət mükafatlarından olan «Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu»na layiq görüldüyünü bildirmiş və mükafatı qonağa təqdim etmişdir.

Xanım Alexandra Moreno Piraquive Azərbaycanın yüksək mükafatına layiq görüldüyünə görə minnətdarlığını bildirmişdir.

## Macarıstanın Baş naziri Azərbaycana səfər etmişdir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 30-da Macarıstanın Baş naziri Viktor Orban ilə görüşmüşdür. Macarıstanın Baş naziri Viktor Orban Azərbaycana ilk səfərindən ötən dövr ərzində Bakıda çox böyük inkişafın şahidi olduğunu vurğulamışdır. Azərbaycan ilə Macarıstan arasında əlaqələrin, o cümlədən siyasi sahədə fəal əməkdaşlığın sürətli və uğurlu inkişafından məmnunluğunu ifadə edən dövlətimizin başçısı iqtisadi sahədə daha çox inkişafa nail olunacağına ümid etdiyini bildirmişdir.

Ölkələrimiz arasında güclü tərəfdaşlıq əlaqələrinin qurulduğunu deyən Prezident İlham Əliyev energetika sektoru ilə bağlı əməkdaşlığımızın genişləndiyini vurğulamışdır. Dövlətimizin başçısı Macarıstanın Baş naziri Viktor Orbanın ölkəmizə səfərinin ikitərəfli əlaqələrimizin inkişafı ilə bağlı məsələlərin müzakirəsi baxımından da əhəmiyyətli olacağına əminliyini bildirmişdir.

Sonra görüş geniş tərkibdə davam etdirilmişdir. Dövlətimizin başçısı Azərbaycan ilə Macarıstan arasında ikitərəfli əlaqələrin, o cümlədən Avropa İttifaqı çərçivəsində əməkdaşlığın önəmini vurğulamışdır. Macarıstanı Azərbaycan üçün əhəmiyyətli tərəfdaş və dost ölkə hesab etdiyini deyən Prezident İlham Əliyev ölkəmizin Macarıstan ilə ikitərəfli əlaqələri daha da inkişaf etdirməkdə maraqlı olduğunu qeyd etmişdir.

Macarıstanın Baş naziri Viktor Orban ölkəsinin Azərbaycan ilə istər ikitərəfli, istərsə çoxtərəfli formatda əməkdaşlığı daha da genişləndirəcəyinə əminliyini bildirmişdir.


2 Vergilər Nazirliyi yenə öndədir

3 İqtisadi artımın prioritetləri

4 Kameral vergi yoxlamaları

5 Vergi xidməti orqanlarında insan resurslarının inkişafı prioritetdir

# Külli miqdarda vergidən yayınma faktları aşkar olunub

Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti tərəfindən aparılan araşdırma zamanı 1980-ci il təvəllüdlü, Lənkəran şəhəri, M.H.Nəccab küçəsi, ev 17-də qeydiyyatda olan Cahangirov Seymur Əhmədağa oğlunun təsisçisi və direktoru olduğu «Fəhmin» müəssisəsinin 2006-2009-cu illərdə 127.022,95 manat məbləğində vergilərin dövlət büdcəsindən yayındırması faktı aşkar olunmuş, 2010-cu ilin iyun ayında Departamentin İstintaq şöbəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 213.2.2-ci maddəsi ilə cinayət işi başlanmışdır.

İstintaq zamanı müəyyən edilmişdir ki, S.Cahangirov nəinki «Fəhmin», eləcə də müxtəlif vaxtlarda «Sanqeyt», «Nuray-S», «Rasa-Tikinti», «Fəza», «Oskar-M», «Cahan LTD» müəssisələrinin adından təqdim etdiyi vergi bəyannamələrinə bilərəkdən təhrif olunmuş məlumatlar daxil etmək və ya bəyannamə təqdim etməmək yolu ilə 3 milyon 287 min 562 manat məbləğində vergiləri dövlət büdcəsindən yayındırmışdır. Bundan başqa, o, «Sanqeyt», «Rasa-Tikinti» və «Relax-Tikinti MTK» müəssisələri adından qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olaraq tütün və yanacaq məhsullarının satışını xüsusi razılıq (lisenziya) almadan həyata keçirmiş və 482 min 105,63 manat gəlir əldə etmişdir.

İstintaq materialları toplanmış dəlillərlə sübuta yetirildiyi üçün 18 yanvar 2011-ci il tarixdə S.Cahangirova Cinayət Məcəlləsinin 192.2.2 və 213.2.2-ci maddələri ilə ittiham elan edilmiş və o, həbs olunmuşdur. Məhkəmənin hökmü ilə S. Cahangirov 3 il ərzində dövlət və özünüidarəetmə orqanlarında maddi-məsul vəzifə tutma hüququndan və 7 il müddətinə azadlıqdan məhrum edilmişdir və hazırda cəzasını çəkməkdədir.

«Faiq-İnşaat B.İ» müəssisəsinin külli miqdarda vergilərin dövlət büdcəsindən yayındırması faktı üzrə 27 sentyabr 2010-cu il tarixdə başlanmış cinayət işinin istintaqı zamanı müəyyən edilmişdir ki, 1973-cü il təvəllüdlü, Ağcabədi rayonunun Qaravəlli kənd sakini Əmiraslanov Mehman Əmiraslan oğlu həmkəndlisi Sarıyev Müşfiq Əliqulu oğlu ilə qabaqcadan əlbir olaraq 2 saylı Ərazi Vergilər İdarəsində vergi ödəyicisi kimi qeydiyyatda olan «Səda-Tikinti-M» müəssisəsinə rəhbərlik edərkən müxtəlif vaxtlarda vergi orqanına təqdim olunmuş bəyannamələrə qəsdən təhrif edilmiş məlumatlar daxil edərək 3 milyon 911 min 460,72 manat, Bakı Şəhər Vergilər Departamentində vergi ödəyicisi kimi qeydiyyatda olan «Texnoqrupkom» müəssisəsinin direktoru olarkən 2010-cu ilin may ayı üzrə 135 min 854,34 manat məbləğində ƏDV-ni, 8 saylı ƏVİ-də qeydiyyatda olan «Yeni Standart şirkəti»nin, «Efiopiya», «İnşaat-Servis», «Səda-12» müəssisəsinin direktoru olarkən 1 milyon 301 min 325 manat məbləğində vergini dövlət büdcəsinə ödəməkdən yayınmış, qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olaraq neft məhsullarının satışı ilə xüsusi razılıq (lisenziya) almadan məşğul olaraq ümumilikdə 232 min 23 manat məbləğində xalis gəlir əldə etmişdir.

M.Sarıyev Əmiraslanovla birlikdə törətdikləri yuxarıda qeyd olunan cinayət əməllərindən başqa, özü ayrılıqda 12 saylı ƏVİ-də qeydiyyatda olan «Faiq-İnşaat B.İ» MMC-yə faktiki rəhbərlik edərkən vergi tutulan dövriyyəni azaltmaqla, ümumilikdə 89 min 130,91 manat məbləğində, 11 saylı ƏVİ-də qeydiyyatda olan «AFA Təmir-Tikinti» MMC- nin rəhbəri olduğu müddətdə 44 min 973,99 manat məbləğində vergini dövlət büdcəsindən yayındırmışdır.

M.Ə.Əmiraslanovun və M.Ə.Sarıyevin sadalanan cinayət əməlləri şahid ifadələri və ekspertiza rəyi ilə sübuta yetirilmiş, Xətai Rayon Məhkəməsinin 17 avqust 2011-ci il tarixli hökmü ilə M.Sariyev 2 il 4 ay 14 gün dövlət və yerli özünü idarəetmə orqanlarında maddi-məsul vəzifə tutma hüququndan və 5 il müddətinə azadlıqdan, M.Əmiraslsnov isə 5 il müddətinə azadlıqdan məhrum edilmişdir.

# Borclu vergi ödəyicilərinin əmlakı siyahıya alınmışdır

İyun ayının 27-də Bakı Şəhər Vergilər Departamentinin Vergi borclarının alınması idarəsinin əməkdaşları tərəfindən Quliyev Faiq Süleyman oğluna məxsus Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, Ü.Rəcəbov küçəsi, ev 24 ünvanda yerləşən «Firuzə» şadlıq sarayının əmlakının siyahıya alınması tədbirləri həyata keçirilmişdir.

F.Quliyevin fəaliyyəti vergi orqanı əməkdaşları tərəfindən yoxlanılarkən 2012-ci ilin aprel ayı üzrə 8 min 909,54 manat vergi borcunun yarandığı müəyyən edilmiş, qanunvericilikdə nəzərdə tutulan bütün tədbirlərin görülməsinə baxmayaraq, vergi ödəyicisinin dövlət büdcəsinə olan borcu ödənilməmişdir.

İyun ayının 20-də Vergi Məcəlləsinin 89-cu maddəsinə əsasən yaranmış vergi borcunun ödənilməsini təmin etmək üsulu kimi F.Quliyevə məxsus «Firuzə» şadlıq sarayının əmlakının siyahıya alınması haqqında qərar çıxarılmışdır.

Vergi ödəyicisi əmlakın siyahıya alınması zamanı borcun bir hissəsini, yəni 4 min 500 manatını yerindəcə ödəmiş, qalan 6 min 450 manat məbləğ isə ödənilmədiyindən, şadlıq evinə məxsus müxtəlif növ texniki avadanlıqlar və mebel müvafiq qaydada siyahıya alınmışdır.

# Vergilər Nazirliyi yenə öndədir

«Multimedia» İnformasiya Sistemləri və Texnologiyaları Mərkəzi tərəfindən 2006-cı ildən başlayaraq informasiya açıqlığı üzrə ictimai informasiya subyektlərinin monitorinqi həyata keçirilir. Növbəti monitorinqin nəticələrini açıqlamaq məqsədilə «dəyirmi masa» təşkil edən Mərkəzin rəhbəri Osman Gündüz monitorinqin cari ilin fevral ayının 1-dən iyun ayınadək davam etdiyini deyərək, ümumilikdə 64 mərkəzi icra orqanı və 67 yerli icra hakimiyyəti orqanının rəsmi internet resursunun analiz edildiyini bildirmişdir. Qeyd olunmuşdur ki, dövlət qurumları ötən monitorinqlərin nəticələrinə ciddi yanaşmaqla yanaşı, irəli sürülən tövsiyələri nəzərə alaraq internet resursları üzərindən ciddi əməliyyatlar aparmışlar. Artıq dövlət qurumları tərəfindən internet resursları üzərində sistemli və komanda formasında işlər həyata keçirilir «Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 23 may 2011-ci il tarixli fərmanından sonra dövlət qurumlarında ciddi canlanma hiss olunmaqdadır.

Mərkəz rəhbəri qeyd etmişdir ki, ötən dövrlər ərzində keçirilən monitorinqlər bir qədər sadə göstəricilər üzrə saytların analiz edilməsinə əsaslanırdısa, indiki monitorinqdə daha geniş və hərtərəfli analizə imkan yaradan parametrlərə üstünlük verilib: «Ümumilikdə ictimai informasiya subyektlərinin informasiya açıqlığını müəyyən etməyə imkan verən 13 blok üzrə 60 parametrdən ibarət göstəricilər əsas götürülmüşdür. Yerli şəraitdən asılı olaraq, hər bir blok üzrə sosial əhəmiyyətlilik əmsalı tətbiq edilib. Cari ildə 64 mərkəzi icra qurumu üzrə orta informasiya açıqlığı göstəricisi təxminən 33,5% olub. Beləliklə, cari ildə 64 dövlət qurumu üzrə nəticəni müqayisə etsək, ötən ilə nisbətən informasiya açıqlığı göstəricisi təxminən 7% artıb. 2012-ci ilin nəticəsinə görə ilk üç yer üzrə orta informasiya açıqlığı səviyyəsi təxminən 66% təşkil etmişdir. Ötən il ən yaxşı üç qurum üzrə müvafiq informasiya açıqlığı göstəricisi 60% olmuşdu».

Mərkəz rəhbəri monitorinqin nəticələrinin ötən illərdən bir qədər fərqli olduğunu deyərək, əlavə etmişdir ki, dəyişməyən bir şey var: o da Vergilər Nazirliyinin həmişəki kimi birincilik mövqeyini qoruyub saxlaya bilməsidir: «Özünün elektron xidmətlər sahəsindəki ciddi irəliləyişləri ilə hər zaman diqqət çəkən bu qurum növbəti dəfə də daha təkmil bir şəkildə iddialarını ortaya qoymağı bacarmışdır. İlk beşlikdə müvafiq olaraq Vergilər Nazirliyi, Dövlət Sosial Müdafiə Fondu, Dövlət Qulluğu Məsələləri üzrə Komissiya, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və İqtisadi İnkişaf Nazirliyi qərarlaşıb».

O.Gündüz 67 yerli icra hakimiyyəti qurumunun rəsmi internet resursunun da monitorinqi barədə danışmışdır. Qeyd etmişdir ki, mərkəzi icra qurumları ilə müqayisədə yerli icra hakimiyyətlərinin internet resursları olduqca zəif inkişaf etmişdir: «Son dövrlər yerlərdə çoxlu sayda yeni resurslar yaradılsa da funksionallıq və informasiya cəhətdən kasadlıqdır. Bu sahədə elektron xidmətlərdən isə ümumiyyətlə danışmaq mümkün deyil».

Monitorinq prosesində mərkəzi icra orqanlarının göstərdiyi elektron xidmətlər də araşdırılmışdır. Xidmətlərin növləri, sayı və aktivlik vəziyyəti, interaktiv, yoxsa informativ olması, vahid portala inteqrasiyası məsələsi monitorinqin əsas predmeti olmuşdur. Hər bir mərkəzi icra orqanının saytının məlumatları və «Elektron hökumət» portalının elektron xidmətlərlə bağlı məlumatları əsas kimi götürülüb. Monitorinqin nəticələrinə əsasən, mərkəzi icra orqanları tərəfindən hazırda cəmi 261 xidmət elektron formada təqdim olunur. Bu xidmətlərin içərisində müraciət formaları, statistik elektron məlumatlar, doldurularaq göndərilməsi təklif olunan formalar, həmçinin informativ və interaktiv xidmətlər də var. 39 mərkəzi icra orqanı tərəfindən təqdim olunan xidmətlərin cəmi 118-i interaktiv formadadır və onların da yalnız 96-sı portala inteqrasiya olunub: «Daha çox sosial əhəmiyyət kəsb edən interaktiv xidmətləri əsasən Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Vergilər Nazirliyi, Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi, Dövlət Miqrasiya Xidməti, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Dövlət Sosial Müdafiə Fondu göstərir».

Tədbirdə iştirak edən Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət idarəsinin əməkdaşı Arif Ələkbər bizimlə söhbətində monitorinqlərin 6 ay müddəti əhatə etdiyini bildirmişdir. Bu müddət ərzində ayrı-ayrı dövlət qurumlarının portalları araşdırılır: «Vergilər Nazirliyinin saytı barədə araşdırma monitorinqin ilk günlərinə təsadüf etdiyindən, son 6 ay ərzində baş verən dəyişikliklər qeydə alınmayıb. Çünki hər qurum bir dəfə monitorinq edilir, sonra ona yenidən qayıdılmır. Məsələn, hesabatda Vergilər Nazirliyi tərəfindən göstərilən elektron xidmətlərin sayı 16 göstərilib. Lakin biz artıq 43-ə yaxın elektron xidmət göstəririk ki, həmin xidmətlərin siyahısı bizim saytımızda yerləşdirilib».

A.Ələkbər bizimlə söhbətində Multimedia Mərkəzinin apardığı monitorinqlərdə Vergilər Nazirliyinin qalib olmasının sevindirici hal olduğunu, lakin, eyni zamanda, bu faktın yenilik olmadığını bildirmişdir: «Beşinci dəfədir ki, nazirlik dövlət qurumları arasında birinciliyi əldə edir. Nazirlər Kabineti tərəfindən Vergilər Nazirliyinin digər elektron xidmətlərinin də təsdiq olunmasından sonra, inanmıram ki, hansısa dövlət qurumu bu sayda elektron xidmətlər göstərsin və Vergilər Nazirliyi ilə rəqabət apara bilsin».

**AYTƏN**

# Qanunsuz uduşlu oyunlar keçirilən obyektlər aşkar olunmuşdur

Vergilər Nazirliyi yanında Vergi Auditi Departamentinin iyun ayının 27-də və 28-də keçirdiyi operativ vergi nəzarəti tədbirləri zamanı Yasamal rayonu, Naxçıvani küçəsi, 9 ünvanında yerləşən, Babayev Kamran Namiq oğluna məxsus obyektdə qanunsuz olaraq kompüter vasitəsilə uduşlu oyunların təşkil olunduğu aşkarlanmışdır. Araşdırma nəticəsində K.Babayevin vergi uçotunda olmadığı və əhali ilə pul hesablaşmalarının aparılması qaydalarını pozaraq qanunsuz sahibkarlıqla məşğul olduğu müəyyən edilmişdir. Vergi əməkdaşları tərəfindən həmin obyektlərdən ümumilikdə 12 ədəd kompüter dəsti, stabilizator, nağd pul və müvafiq qeydlərin aparıldığı dəftər və bloknotlar, «qara mühasibat» sənədləri götürülmüşdür.

Nəsimi rayonu, Hüseyn Seyidzadə küçəsi, ev 9-da və Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, Xəlilbəy Xasməmmədov küçəsi, ev 3b ünvanda vergi nəzarəti tədbirləri həyata keçirilərkən Seyidov Əli Səfər oğluna məxsus «Çayxana» futbol klubunda və fiziki şəxs Həsənov Şahbaz Məhərrəm oğluna məxsus obyektdə qanunsuz mərc (totalizator) oyunlarının keçirildiyi müəyyən olunmuşdur. Tədbir zamanı Ə.Seyidovun vergi orqanında qeydiyyatdan keçmədiyi, nağd pul hesablaşmalarının aparılması qaydalarına əməl etmədiyi və bir nəfər fiziki şəxsin əmək müqaviləsi bağlamadan işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edildiyi aşkar olunmuşdur. Ş.Həsənova məxsus obyektin də qanunsuz sahibkarlıqla məşğul olduğu, iki nəfər fiziki şəxsin əmək müqaviləsi bağlamadan işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edildiyi müəyyənləşdirilmişdir. Vergi əməkdaşları tərəfindən həmin obyektlərin qanunsuz fəaliyyətlərini təsdiq edən noutbuklar, kompüter dəstləri, «qara mühasibat» sənədləri, möhür və qəbzlər götürülmüşdür.

# Vergi ödəyicilərinə göstərilən xidmətlərin sayı artır

*Cari ilin yanvar-may aylarında xidmət mərkəzlərində 41 minə yaxın vergi ödəyicisinə 99 min 273 xidmət göstərilmişdir*

«Azərbaycan Respublikasında vergi inzibatçılığının təkmilləşdirilməsi Dövlət Proqramı (2005-2007-ci illər)»na əsasən, ölkədə vergilərin könüllü ödənilməsi sisteminin inkişaf etdirilməsi, əlverişli biznes mühitinin formalaşdırılması,vergi ödəyiciləri ilə vergi orqanları arasında münasibətləri daha da təkmilləşdirmək məqsədilə vergi ödəyiciləri üçün xidmət mərkəzlərinin yaradılması istiqamətində ardıcıl işlər görülmüşdür. Bu məqsədlə 2007-ci ildən Vergilər Nazirliyi tərəfindən regionlarda, xüsusən vergi orqanı olmayan iri şəhər və rayonlarda xidmət mərkəzlərinin qurulacağı yerlər müəyyən edilmiş, müasir kompüter və kompüter avadanlıqları, sürətli kommunikasiya sistemi ilə, zəruri mebel və avadanlıqlarla təchiz edilmiş xidmət mərkəzlərinin tikintisinə başlanılmışdır.

Xidmət mərkəzlərinin əsas məqsədi həmin regionda fəaliyyət göstərən vergi ödəyicilərinə müasir standartlara uyğun vergi xidmətlərinin göstərilməsidir. Buraya daxildir:

- vergi qanunvericiliyinin tətbiqi barədə məlumat və izahatların verilməsi;
- vergi bəyannamələri ilə bağlı xidmətlərin göstərilməsi;
- vergi bəyannamələrinin elektron formada düzgün tərtib edilməsi və göndərilməsi (elektron daşıyıcısında) barədə izahatların verilməsi;
- vergi ödəyicisi ilə vergi orqanı arasında elektron sənəd mübadiləsinin aparılmasına dair xidmətlərin göstərilməsi;
- vergi ödəyicilərinin büdcəyə olan borclarının öyrənilməsi, onlara öz şəxsi vərəqəsinə baxış imkanının yaradılması;
- vergi ödəyiciləri üçün vergi qanunvericiliyinin tətbiqi prosesində qarşıya çıxan cari məsələlər barədə treninqlərin keçirilməsi.

Vergilər Nazirliyi ilə Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası arasında bağlanmış partnyorluq sazişinə uyğun olaraq, mərkəzlərdə ödəyicilərə xidmət konfederasiyanın nümayəndəsi və vergi orqanının əməkdaşı vasitəsilə həyata keçirilir.

Bununla yanaşı, Vergilər Nazirliyi ilə Tələbə Qəbulu üzrə Dövlət Komissiyası arasındakı razılaşmaya əsasən, xidmət mərkəzlərində ali və orta ixtisas məktəblərinə sənədlərin göndərilməsi ilə bağlı müraciət edən abituriyentlərə, habelə dövlət qulluğuna və vergi orqanlarına qəbulla əlaqədar müraciət edən vətəndaşlara ərizələrin qəbulu üçün müvafiq şəraitin yaradılması təmin edilmişdir. Gələcəkdə xidmət mərkəzlərinin fəaliyyətinin daha da təkmilləşdirilməsi və sayının artırılması nəzərdə tutulur. 2011-ci il ərzində vergi ödəyicilərinə xidmət mərkəzlərində 50 mindən çox vergi ödəyicisi qəbul edilərək, onlara 140 minədək çox müxtəlif növ vergi xidməti, o cümlədən 40 minədək vergi ödəyicisinə bəyannamələrin elektron formada göndərilməsi, 30 minədək vergi ödəyicisinə bəyannamələrin düzgün tərtib edilməsi ilə əlaqədar kömək göstərilmiş, 16 mindən çox vergi ödəyicisinə vergi qanunvericiliyinə aid məlumat və izahatlar verilmişdir. 2012-ci ilin 5 ayı ərzində xidmət mərkəzlərində 40 mindən çox vergi ödəyicisi qəbul edilmiş, onlara 99273 xidmət göstərilmişdir. Onlardan 28530-u bəyannamələrin elektron formada göndərilməsi, 15759-u hesabat, ərizə, arayış və digər sənədlərin tərtibi üzrə köməklik, 19915-i isə qanunvericiliyə aid məlumat və izahatlarla bağlı olmuşdur. Onu da qeyd edək ki, hazırda ölkə üzrə xidmət mərkəzlərinin sayı 36-dır. Bəzi bölgələrdə xidmət mərkəzlərinin tikintisi davam etdirilir. Yaxın vaxtlarda Lerik, Yardımlı, Astara və Neftçala rayonlarında vergi ödəyicilərinə xidmət mərkəzlərinin açılışı gözlənilir.

Xidmət mərkəzlərində vergi ödəyicilərinə göstərilən xidmətlər - vergi orqanı tərəfindən həyata keçirilən yoxlama-nəzarət, təhlil və təhqiqat, məcburi alınma prosesləri istisna olmaqla, vergi ödəyicilərinə göstərilən xidmətlərin bütün spektrini əhatə edir. Son zamanlar Nazirlik tərəfindən vergi ödəyicilərinə göstərilən bütün xidmətlərin elektronlaşdırılması ödəyicilərin bu sahədə maarifləndirilməsini tələb edir. Odur ki, ərazilərdə fəaliyyət göstərən bütün xidmət mərkəzlərində Vergilər Nazirliyi tərəfindən tətbiq edilən elektron xidmətlərlə əlaqədar, əsasən, fiziki və hüquqi şəxslərin, eləcə də NKA-ların elektron qeydiyyatı, bankda hesabın açılması, e-vergi hesab-fakturalarının göndərilməsi ilə bağlı vətəndaşlara müvafiq köməklər göstərilir. Bununla yanaşı, NKA və POS-terminalların qeydiyyatı, quraşdırılması, istifadəsi barədə vergi ödəyicilərinə məlumat və izahatlar verilir.

Xidmət mərkəzlərində Vergilər Nazirliyinin internet səhifəsində və İnternet Vergi İdarəsində yaradılan xidmətlər barədə vətəndaşlara məlumat verilir, e-bəyannamə, onlayn-kargüzarlıq və digər elektron xidmətlərdən istifadə qaydaları öyrədilir.

Xidmət mərkəzlərində e-imza barədə müraciət edən şəxslərə məlumat və izahatlar verilir, həmçinin Vergilər Nazirliyi ilə hər hansı dövlət orqanı arasındakı razılaşma əsasında Xidmət mərkəzinə müraciət edən vətəndaşlara həmin dövlət orqanlarının elektron xidmətlərindən istifadə etmək imkanı yaradılır.

**Arzu İBRAHİMOVA**



# İqtisadi artımın prioritetləri

*Müsahibimiz İqtisadi İnkişaf Nazirliyinin İqtisadi siyasət, təhlil və proqnozlaşdırma şöbəsinin müdiri Ədalət Muradovdur*



***- Ədalət müəllim, hökumətin hədəfi yaxın onillikdə ölkəmizdə ümumi daxili məhsulu (ÜDM) 2 dəfə artırmaq və bu artımı qeyri-neft sektoru hesabına təmin etməkdir. Qarşıdakı illər üzrə qeyri-neft sektorunun artım dinamikasını necə proqnozlaşdırmaq olar?***

- Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkə iqtisadiyyatının neft sektorundan asılılığının azaldılması, qeyri-neft sektorunun inkişaf etdirilməsi və bütövlükdə, diversifikasiya siyasətinin nəticəsi olaraq ölkəmizdə iqtisadi artımın dayanıqlılığı təmin edilmiş, son 8 ildə ÜDM real olaraq 3 dəfə artmışdır. Hazırda ÜDM-in artımı, əsasən, qeyri-neft sektoru hesabına təmin olunur. Son 8 ildə qeyri-neft sektoru 2,2 dəfə artıb. Bu sektor investisiyaların yatırılması baxımından da ön plana çıxıb. Təkcə ötən il Azərbaycan iqtisadiyyatına 20 milyard dollar həcmində investisiya yatırılıb ki, bunun da 15,7 milyard dolları qeyri-neft sektorunun payına düşür.

Azərbaycan iqtisadiyyatının gələcək inkişafı da, əsasən, qeyri-neft sektoru ilə bağlı olacaqdır. Hazırda bu istiqamətdə bir çox işlər görülməkdədir. İlk növbədə, infrastruktur təminatının yaxşılaşdırılması istiqamətində layihələr davam etdirilir. İnfrastruktur təminatının yaxşılaşdırılması və kommunal sektorun yenidən qurulması regionlarda iş adamlarının fəaliyyəti və investisiya qoyuluşları üçün xüsusi əhəmiyyət daşıyır. Bunun nəticəsidir ki, bölgələrə yatırılan sərmayələrin həcmi, açılan yeni müəssisələrin sayı ildən-ilə çoxalır, regionların iqtisadi artıma töhfəsi artır. Ona görə də proqnozlar qeyri-neft sektorunun dinamik inkişaf edəcəyini göstərir.

***- Prezident İlham Əliyev Azərbaycanın Strateji İnkişaf Konsepsiyasının hazırlanması ilə bağlı aidiyyəti qurumlara tapşırıqlar vermişdir. İqtisadi İnkişaf Nazirliyi tərəfindən bu konsepsiyanın hazırlanması istiqamətində hansı tədbirlər nəzərdə tutulur?***

- Nazirliyimiz tərəfindən «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasının layihəsinə dair təkliflər hazırlanmışdır. Bu konsepsiyada çoxşaxəli, səmərəli və innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması, sosial sahədə önləyici inkişaf təmayülünün təmin olunması, əhalinin rifahının beynəlxalq standartlara uyğun səviyyəyə çatdırılması, elmin, mədəniyyətin inkişafında, ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunması kimi məqsədlər nəzərdə tutulmuşdur.

Qeyri-neft sahəsində yüksək artım tempinə nail olunması və bu sektor hesabına adambaşına ÜDM-in artırılması, ÜDM-in strukturunda qeyri-neft sektorunun payının əhəmiyyətli dərəcədə yüksəldilməsi, adambaşına qeyri-neft ixracının artımının təmin edilməsi kimi hədəflər müəyyənləşdirilmişdir. Bu hədəflərə çatmaq üçün konsepsiya çərçivəsində iki istiqamətdə - iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması və strukturunun təkmilləşdirilməsi istiqamətində tədbirlər görülməsi təklif olunur.

İqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması makroiqtisadi sabitliyin qorunması, monetar və fiskal siyasətin koordinasiyasının gücləndirilməsi, maliyyə xidmətləri bazarının inkişaf etdirilməsi, biznes mühitinin daha da yaxşılaşdırılması və özəl təşəbbüsün dəstəklənməsinin genişləndirilməsi başlıca hədəflərdəndir. Eyni zamanda, xarici ticarət və investisiya siyasətinin təkmilləşdirilməsi, enerji, nəqliyyat, tranzit və logistika infrastrukturunun inkişaf etdirilməsi, İKT və rabitə xidmətlərindən istifadə imkanlarının genişləndirilməsi də əsas prioritetlərdir. Konsepsiya innovasiya fəaliyyətinin inkişaf etdirilməsi, insan kapitalının inkişafının təmin edilməsi, ətraf mühitin qorunması, şəhər və kənd yerlərində infrastrukturun və sosial xidmətlərin inkişaf etdirilməsi, qanunvericiliyin təkmilləşdirilməsi və institusional potensialın gücləndirilməsi kimi istiqamətləri də əhatə edir.

İqtisadiyyatın strukturunun təkmilləşdirilməsi isə neft-qaz sektoru və neft-kimya sənayesinin modernləşdirilməsi, qeyri-neft sənayesinin şaxələndirilməsi və inkişaf etdirilməsi, alternativ və bərpa olunan enerji mənbələrindən istifadə imkanlarının genişləndirilməsi yaxın onilliyin başlıca meyarlarından ibarətdir. Bizim hədəflərimiz sırasına kənd təsərrüfatının intensiv inkişafının təmin olunması və ərzaq təhlükəsizliyinin gücləndirilməsi, ticarət və xidmət fəaliyyət növlərinin genişləndirilməsi və inkişaf etdirilməsi, xarici ticarətin və investisiyaların strukturunun təkmilləşdirilməsi, regional ixtisaslaşmanın və regionların tarazlı inkişafının dəstəklənməsi kimi istiqamətlər də daxildir.

***- Dövlət-sahibkar münasibətlərinin tənzimlənməsi, daha əlverişli biznes mühitinin yaradılması istiqamətində hansı tədbirlər həyata keçirilir?***

- Azərbaycanda sahibkarlığın inkişafı iqtisadi siyasətin prioritet istiqamətlərindəndir. Bu istiqamətdə ardıcıl olaraq dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, biznes mühitinə dair qanunvericiliyin və inzibati prosedurların təkmilləşdirilməsi, sahibkarlığa dövlət dəstəyi mexanizmlərinin genişləndirilməsi, maarifləndirmə, sahibkarların işgüzar əlaqələrinin inkişafı və müxtəlif növ xidmətlərin göstərilməsi kimi kompleks tədbirlər həyata keçirilir.

Sahibkarlıq fəaliyyətinə əsassız müdaxilələrin aradan qaldırılması istiqamətində ciddi tədbirlər görülmüş, aparılan yoxlamaların vahid məlumat reyestri yaradılmışdır.

Bununla yanaşı, icazələrin elektron informasiya portalı yaradılmışdır ki, bu sayt vasitəsilə icazə xarakterli sənədlərə və onların alınması prosedurlarına, təqdim edilməli sənədlərə, icazələrin verilmə müddətinə dair bütün məlumatları vahid mənbədən əldə etmək mümkündür.

Güzəştli kreditlərdən istifadə qaydalarına edilmiş dəyişikliklər iri və uzunmüddətli investisiya layihələrinin, həmçinin kiçik sahibkarlığın güzəştli şərtlərlə maliyyələşdirilməsi imkanlarını artırıb.

Qeyd etmək lazımdır ki, biznes mühitinin daha da yaxşılaşdırılması siyasəti sahibkarların maraqlarını bütövlükdə nəzərə almaqla, bu sahədə şəffaflığın təmin olunmasında mühüm əhəmiyyət daşıyır.

Həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində özəl sektorun ölkənin sosial-iqtisadi inkişafında və ÜDM istehsalında xüsusi çəkisi artmışdır. Bu gün ÜDM-in həcmində özəl sektorun payı 80%-dən çoxdur.

***- İqtisadi artım və qeyri-neft sektorunun inkişafı, heç şübhəsiz, vergi siyasəti ilə birbaşa bağlıdır. Ölkəmizdə həyata keçirilən vergi siyasətinin əsas üstünlüklərini necə qiymətləndirərdiniz?***

- Vergi sistemində elektron texnologiyaların geniş tətbiqi, bəyannamələrin elektron formada qəbulu, sahibkarlıq subyektlərinin «bir pəncərə» sistemi ilə qeydiyyatdan keçməsi və onların fəaliyyətinin stimullaşdırılması ilə bağlı digər tədbirlər vergi daxilolmalarının artımında mühüm rol oynamışdır.

Vergi siyasətinin əsas məqsədi, məlum olduğu kimi, son nəticədə iqtisadi artıma yardım etməkdən ibarətdir. Vergi daxilolmalarının vergi yükünə elastikliyinin qiymətləndirilməsi əsasında müəyyən edilmişdir ki, ölkəmizdə büdcə daxilolmaları ilə vergi yükü arasında müsbət asılılıq mövcuddur. Bu isə, ilk növbədə, Azərbaycanda vergi yükünün iqtisadi artım baxımından ağır olmaması ilə izah oluna bilər.

Ölkə iqtisadiyyatının diversifikasiyası, regionların və sahibkarlığın daha da inkişaf etdirilməsi, qeyri-neft ixracının artırılması və dünya iqtisadiyyatına inteqrasiya istiqamətində həyata keçirilən siyasət növbəti 10 ildə qeyri-neft sektorunun əvvəlki onilliklə müqayisədə daha çox artacağını şərtləndirir. Bu baxımdan, yaxın 10 il ərzində inkişaf istiqamətləri nəzərə alınmaqla, vergi potensialının qiymətləndirilməsi mühüm əhəmiyyət daşıyır. Belə ki, vergi daxilolmaları üzrə proqnozların gözlənilən iqtisadi artıma, formalaşan innovativ iqtisadiyyata uyğunlaşdırılması qarşıda duran əsas vəzifələrdəndir: qeyri-neft sektorunda yüksək inkişaf meyilləri vergi bazasının və elektron ödənişlərin tətbiqinin daha da genişləndirilməsini zəruri edir.

**Elbrus CƏFƏRLİ**

# «Elektron hökumət» portalı təkmilləşdirilir

***Bu gün Azərbaycanda elektron xidmətlərin formalaşdırılması fəal mərhələyə daxil olub. Ölkədə elektron hökumət quruculuğu istiqamətində dövlət qurumları tərəfindən əhaliyə göstərilən bütün xidmətlərin elektronlaşdırılması dövlət məmurları ilə vətəndaşlar arasında keyfiyyətcə yeni münasibətlərin formalaşmasına zəmin yaratmışdır. Ölkədə elektron xidmətlərə keçid bir sıra strukturların fəaliyyətində şəffaflığın təmin edilməsinə, korrupsiya hallarının azalmasına, süründürməçilik hallarının aradan qaldırılmasına, vətəndaşla dövlət strukturları arasında canlı əlaqənin, o cümlədən kağız daşıyıcılarının minimuma enməsinə gətirib çıxarmışdır.***

Ölkədə elektron hökumət quruculuğu istiqamətində atılan mühüm addımlardan biri cari ilin aprel ayında «Elektron hökumət» portalının (www.ehdis.az) vətəndaşların istifadəsinə verilməsidir. Artıq istənilən şəxs portala daxil olub buraya qoşulan dövlət qurumunun təqdim etdiyi elektron xidmətlərdən istifadə edə bilir. Hələlik portalın birinci fazası istifadəyə verilib. Portala 16 mərkəzi icra orqanı qoşulub ki, bunun nəticəsində portala mərkəzi icra orqanlarının 60-a yaxın elektron xidməti inteqrasiya olunub. Onların arasında Vergilər, Daxili İşlər, Nəqliyyat, Rabitə və İnformasiya Texnologiyaları, Ədliyyə, Fövqəladə Hallar, Əmək və Əhalinin Sosial Müdafiəsi, Təhsil və Səhiyyə nazirlikləri, Dövlət Statistika Komitəsi, Dövlət Sosial Müdafiə Fondu, Dövlət Gömrük Komitəsi, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi də var. Mərkəzi icra orqanlarının portala qoşulması davam edir. 2013-cü ilin ikinci yarısına qədər 300-ə yaxın elektron xidmətin istifadəyə verilməsi nəzərdə tutulur.

Portaldan istifadə etmək üçün elektron imza kartına sahib olmaq gərəkdir. Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin İnformasiya cəmiyyətinin inkişafı şöbəsinin müdiri İsfəndiyar Əliyevin KİV-ə verdiyi məlumata əsasən, ən çox elektron imzanı dövlət orqanlarının işçiləri alırlar. Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Sosial Müdafiə Fondu indiyədək daha çox elektron imza almışdır. Elektron imza üçün müraciət edənlərin sayı hər ay artır, təkcə may ayında 500 imza alınmışdır və indiyə qədər istifadəyə verilmiş imzaların sayı 1500-ü keçmişdir. Fiziki şəxslər arasında, əksəriyyəti biznes sektorunda çalışanlar olmaqla, təxminən 300 imza alınıb.

Elektron xidmətlərdən istifadə üçün elektron rəqəmsal imzanın mövcudluğu vacibdir. Bu imzaların verilməsi üçün 3 mərkəz fəaliyyət göstərir. Onlardan biri əsas, ikincisi dövlət sektoruna imzaların verilməsi üçün nəzərdə tutulub. Üçüncüsü isə əhaliyə və biznes strukturlarına rəqəmsal imzaların verilməsi üçün fəaliyyət göstərir. 3 il müddətinə verilən elektron imza kartı fərdi şəxslərə 20-30 manata, dövlət orqanları üçün 135 manata, hüquqi şəxslər üçün isə 168 manata təklif olunur.

Qeyd edək ki, bu yaxınlarda Nazirlər Kabinetinin qərarına əsasən, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının hazırladıqları normativ hüquqi aktların layihələrinin «Elektron hökumət» portalında yerləşdirilməsi qaydaları təsdiq edilmişdir. Bu qaydalar Nazirlər Kabineti və mərkəzi icra hakimiyyəti orqanları tərəfindən hazırlanmış normativ hüquqi aktların layihələrinin portalda yerləşdirilməsi, layihələrin açıq müzakirəsi, həmçinin müzakirədə iştirak etmiş şəxslərə informasiya sahibləri tərəfindən cavab verilməsi qaydalarını müəyyən edir. Normativ hüquqi aktların layihələri razılaşdırılmağa göndərildiyi andan həmin layihəni hazırlamış dövlət orqanı tərəfindən portalda yerləşdiriləcək. Layihənin müzakirəsində iştirak etmək istəyən şəxslər portalda qeydiyyatdan keçməlidir. Layihələrin portalda yerləşdirilməsini təmin etmək məqsədilə informasiya sahibi məsul şəxsi müəyyən edir və onu elektron imza ilə təmin edir. İstifadə təlimatı isə portalın xüsusi bölməsindən əldə ediləcək. Layihənin mətni İSO 10646 (Unicode) beynəlxalq standartına uyğun fontlardan istifadə edilərək hazırlanmalıdır. Elektron imzası olanlar layihələrə sərbəst və ödənişsiz çıxış əldə edəcəklər. Layihəyə dair portalda şəxslər tərəfindən verilmiş irad və təkliflər yalnız informasiya sahibi üçün açıq olacaq. Layihə ilə əlaqədar irad və təkliflər vermiş şəxslərə informasiya sahibləri tərəfindən portal vasitəsilə cavab göndərilməsi üçün texniki imkan da yaradılacaq.

**Arzu İBRAHİMOVA**



Akif Musayev
Azərbaycan Respublikası Vergilər Nazirliyinin
Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi

Rakurs

## Sosial kapital və korporativ sosial məsuliyyət (KSM)

Son zamanlar iqtisadi və sosial elmlərdə sosial kapitala həsr edilmiş elmi tədqiqatların sayı artmışdır. Sosial kapital dedikdə, cəmiyyətin müxtəlif təbəqələri arasındakı əməkdaşlığın səviyyəsinin iqtisadi və ictimai faydalılığa təsiri dərəcəsi başa düşülür. Sosial kapital cəmiyyətin müxtəlif qruplarını birləşdirən bir mühitdir. Bu mühitin daha əlverişli olduğu ölkələrdə, bir qayda olaraq, vergilərdən yayınma halları aşağı olur. Sosial kapital, eyni zamanda, cəmiyyətin təbəqələri arasındakı inam dərəcəsini ifadə edir. XVIII və XIX əsrlərdə ticarət müqavilələri iki tərəfin razılaşması, onların verdikləri «şərəf sözü» əsasında bağlanırdı və müqavilənin imzalanması tərəflərin, sadəcə, əl sıxmasından ibarət olurdu. Hətta Britaniyada XIX əsrə qədər böyuk ticarət müqavilələri tərəflərin əl sıxmaları ilə həyata keçirilirdi. Əgər biznes davranışında inam və etibar mövcud deyilsə, onda ticarət əməliyyatının xərcləri gözlənildiyindən çox olur. Ona görə ki, inam olduğu halda xərc tələb edən informasiya toplanışına və müqavilələri işləmək üçün bahalı hüquqşünaslara ehtiyac olmur. İnam və KSM bir-birilə sıx əlaqəlidir. KSM prinsiplərini rəhbər tutan şirkət onun fəaliyyətində maraqlı olan tərəflərin ona inamını artırmaq üçün əlindən gələni edəcəkdir.

Tərəflər arasındakı inam sosial kapital anlayışı ilə əlaqəlidir. Əslində, cəmiyyətdə inam ən kiçik, vacib sosial vahidlərdən (fərd və ya ailə) başlayır və millət səviyyəsinə qədər yüksəlir. Məsələn, əgər bir şəxs əlindəki zibil paketini heç kimin görmədiyi bir yerə atmaq əvəzinə onu zibil qutularına qədər daşıyırsa, bu şəxs etibar ediləcək şəxsdir. Əgər cəmiyyətin bütün fərdlərinə belə xırda məsələlərdə etibar olunsaydı, onda bunun ardınca daha böyük məsələlərdə inam yaranar və nəticədə cəmiyyətin sosial kapitalı artardı. Sosial kapitalın artması isə vergi ödəyiciləri ilə vergi orqanları arasında olan partnyorluq prinsipini gücləndirir. Biznes iştirakçıları yalnız öz aralarında yox, eyni zamanda ətraf mühitin qorunmasında, vergilərin vaxtında ödənilməsində və etik davranışda məsuliyyət daşıyırlar.

Amerikanın məşhur «Shell» şirkətinin öz tullantılarını Atlantik okeanına axıtma cəhdi çox böyük beynəlxalq ajiotaja səbəb oldu. «Shell»in illər ərzində yaratdığı inam və sosial kapital çox sürətlə aşağı düşdü və bərpası üçün illər tələb olundu. Eyni taleyi BP şirkəti də yaşadı.

Sosial məsuliyyət daşıyan müəssisə hal-hazırkı sosial kapitalını qorumaq, gələcəkdə isə daha da artırmaq üçün mübarizə aparmalıdır.

*Etik davranış fərdlərin, qrupların və cəmiyyətin necə davranmalarına təsir göstərən dəyərləri və prinsipləri əhatə edir. Biznes etikası isə bu dəyər və prinsiplərin biznesdə necə tətbiqi ilə əlaqədardır.*

Biznes etikası ilə sosial məsuliyyət arasında birbaşa əlaqə mövcuddur. Korporativ sosial məsuliyyət şirkətin idarəetmə strategiyasının bir hissəsidir, buna görə də biznes etikası sosial məsuliyyətə aid edilir. Sosial məsuliyyət və etik qaydaları həm şirkətin daxilində, həm də şirkətdən kənarda sosial məsələlərlə məşğul olmağa həvəsləndirir. Vergi siyasətinin təkmilləşdirilməsi və onun səmərəliliyinin hansı istiqamətdə aparılması sosial kapitaldan birbaşa asılıdır. Əgər vergi siyasəti sosial kapital səviyyəsi ilə uyğunlaşmırsa, onda onun səmərəliliyi aşağı olur.

Sosial məsuliyyət daşıyan müəssisə anlayışı, əslində, maraqlı tərəflər nəzəriyyəsinin bir hissəsini təşkil edir. Sosial siyasət baxımından, onun funksiyalarının bir hissəsinin müəssisələrə keçməsi effektivliyi artırmaqla yanaşı, dövlətin sosial yükünü və eyni dərəcədə vergi yükünü də azaldır. Vaxtilə ABŞ-ın «General Electric» şirkəti maraqlı tərəflərin dörd əsas qrupunu müəyyənləşdirmişdi: səhmdarlar; işçilər; müştərilər; cəmiyyət.

Əsas maraqlı tərəflərin şirkətin və ya qurumun fəaliyyətində bilavasitə və davamlı iştirakı mütləqdir. Əks təqdirdə, şirkət və ya qurum irəli gedə bilməz. Bu qrupa səhmdarları, investorları, işçiləri, müştəriləri, təchizatçıları, dövləti (hökuməti) və qanunları aid etmək olar. İkinci dərəcəli səhmdarlar isə şirkətin fəaliyyətinə təsir göstərirlər, lakin ticarət əməliyyatlarında (əqdlərdə) onların bilavasitə iştirakı vacib deyildir. Bu qrupa medianı və xüsusi maraqlı tərəfi - əhalini aid etmək olar. Kanadada 70 nəhəng şirkət arasında aparılan araşdırmalar belə bir nəticəyə gəlmişdi ki, maraqlı tərəflərin məsələləri və sosial məsələlər deyilən iki amil mövcuddur. Şirkət rəhbərləri ən çox maraqlı tərəflərlə olan münasibətləri idarə edirlər, cəmiyyətlə olan münasibətlərə isə fikir vermirlər.

İnsanlara dəyər verməyən, sosial kapitalı yaratmayan, yalnız öz varidatını və əmlakını qorumağa çalışan qurum özü-özünü iflasa sürükləyir.

### RƏQƏMLƏRİN DİLİ İLƏ

- ARDNŞ-nin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi 2012-ci ilin iyun ayında dünya bazarlarına Novorossiysk limanından **164 min 662 ton**, Supsa limanından **80 min 788 ton**, Çeyhan limanından **1 milyon 618 min 587 ton** xam neft ixrac etmişdir.
- Muzdla işləyənlərin orta aylıq əməkhaqqı yanvar-aprel aylarında **379.1 manat** təşkil etmiş və keçən ilin müvafiq dövrünə nisbətən **8,4%** artmışdır.
- Ölkənin maliyyə-kredit təşkilatları may ayının 1-nə kimi hüquqi və fiziki şəxslərə ötən ilin müvafiq dövründə olduğundan **21,1%** çox və ya **10.5 milyard** manat məbləğində kredit ayırmışlar.
- Cari ilin yanvar-may aylarında Azərbaycanda qeyri-neft sənaye bölməsinin əksər sahələrində istehsalın həcmi yüksəlməkdə davam edərək, ümumi artım **8,8%** təşkil etmişdir.



## Hüquq məsləhətxanamız

Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq idarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir.

### *Məcburi köçkünlərin gəlir vergisi*

*Bakı şəhərində mənzil sahəsi olan və həmin mənzildə daimi məskunlaşan məcburi köçkünlərin muzdlu işlə əlaqədar aylıq gəlirlərindən gəlir vergisi tutulurmu?*

Vergi Məcəlləsinin 95-ci maddəsində qeyd edilmişdir ki, rezident və qeyri-rezident fiziki şəxslər gəlir vergisinin ödəyiciləridir. Məcəllənin 97-ci maddəsinin tələblərinə əsasən, rezident vergi ödəyicisinin gəliri onun Azərbaycan Respublikasında və Azərbaycan Respublikasının hüdudlarından kənarda əldə etdiyi gəlirdən ibarətdir. Qeyri-rezident vergi ödəyicisinin gəliri isə onun Azərbaycan Respublikası mənbələrindən əldə etdiyi gəlirlərdir.

***Gəlirlərə aiddir:***

- muzdlu işlə əlaqədar əldə edilən gəlir;
- muzdlu işə aid olmayan fəaliyyətdən əldə edilən gəlir;
- vergilərdən azad edilən gəlirlərdən başqa,

bütün digər gəlirlər.

Vergi Məcəlləsinin 98.1-ci maddəsində qeyd edilmişdir ki, fiziki şəxs tərəfindən muzdlu işlə əlaqədar alınan gəlir - əməkhaqqı, bu işdən alınan hər hansı ödəmə və ya fayda, o cümlədən əvvəlki iş yerindən, yaxud gələcək muzdlu işdən alınan gəlirdir.

Bunlarla yanaşı, Vergi Məcəlləsinin 102.4.5-ci maddəsinin tələblərinə əsasən, məcburi köçkünlər və onlara bərabər tutulan şəxslərin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 55 manat məbləğində azaldılır. Bu güzəşt mənzil qanunvericiliyinə və ya mülki hüquqi əqdlərə əsasən, ayrıca mənzil sahəsi əldə etməsi nəticəsində daimi məskunlaşmış şəxslərə şamil edilmir.

Yuxarıda qeyd edilən qanunçuluq tələblərini nəzərə alaraq bildiririk ki, mənzil qanunvericiliyinə və ya mülki-hüquqi əqdlərə əsasən, ayrıca mənzil sahəsi əldə etməyən məcburi köçkünlər və onlara bərabər tutulan şəxslərin muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 55 manat məbləğində azaldılır. Mənzil qanunvericiliyinə və ya mülki-hüquqi əqdlərə əsasən, ayrıca mənzil sahəsi əldə etməsi nəticəsində daimi məskunlaşmış məcburi köçkünlər və onlara bərabər tutulan şəxslərin (mənzil sahələrinin harada yerləşməsindən asılı olmayaraq) isə muzdlu işlə əlaqədar aldıqları aylıq gəlirlərindən Vergi Məcəlləsinin 101.1-ci maddəsində nəzərdə tutulmuş qaydada gəlir vergisi tutulur.

Suallarınızı redaksiyamızın ünvanına:
AZ 1073, Bakı ş., Landau küç., 16 və ya bu elektron poçt ünvanlarına
göndərə bilərsiniz: **s.musayeva@taxes.gov.az**, **anar.eliyev@taxes.gov.az**

# Vergi inzibatçılığı təkmilləşdirilir...

*Müsahibimiz Azərbaycan Respublikası Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin Vergi inzibatçılığının təkmilləşdirilməsi şöbəsinin rəisi Hafiz Məmmədovdur*



***- Hafiz müəllim, vergi inzibatçılığının təkmilləşdirilməsi sahəsində indiyədək görülən işlərin əhatə dairəsini ümumi şəkildə necə ifadə etmək mümkündür?***

- Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiq olunmuş «Vergi inzibatçılığının təkmilləşdirilməsi üzrə Dövlət Proqramı»nın reallaşdırılması çərçivəsində vergi orqanlarında idarəetmə sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması, vergilərin könüllü ödənilməsi sisteminin inkişaf etdirilməsi, vergi ödəyicilərinin hüquqlarının etibarlı qorunmasının təmin edilməsi, vergidən yayınma halları ilə mübarizənin gücləndirilməsi, vergilərin məcburi ödənilməsi sisteminin təkmilləşdirilməsi və vergi borclarının yaranmasının qarşısının alınması istiqamətində əhəmiyyətli işlər görülmüşdür. Vergi sisteminin təkmilləşdirilməsi sahəsində son illərin ən mühüm nailiyyətlərindən biri Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminin (AVİS) tətbiqidir. AVİS-in işə salınması vergi inzibatçılığının təkmilləşdirilməsinə, vergi sistemində sənəd dövriyyəsinin elektron formatda həyata keçirilməsinə, məlumatların işlənməsi sürətinin dəfələrlə artmasına, operativ və çevik vergi nəzarətinin qurulmasına, digər qurumlarla inteqrasiyanın genişlənməsinə imkan vermişdir.

Vergi inzibatçılığının inkişaf etdirilməsi istiqamətində vergi borclarının məcburi alınması sahəsində keyfiyyət və kəmiyyət göstəricilərinin artırılması mexanizminin təkmilləşdirilməsi, vergilərin ödənilməsi üzrə məcburi alınma işlərinin səmərəliliyinin artırılması ilə bağlı tədbirlər davam etdirilmiş, vergi borcu əvəzinə hərraca çıxarılmış əmlakların satışı prosesləri sadələşdirilmişdir.

Bununla bərabər, Vergilər Nazirliyinin kompüter informasiya sistemi vasitəsilə borcların qruplaşdırılması və vergi ödəyicilərinə bildirişlərin göndərilməsinin avtomatlaşdırılması təmin edilmişdir.

***- Vergi inzibatçılığının təkmilləşdirilməsi prosesi beynəlxalq təcrübələrə necə uyğunlaşdırılır?***

- Azərbaycan Respublikasının Avropa Qonşuluq Siyasəti çərçivəsində qəbul olunan Fəaliyyət Planına uyğun olaraq, bu gün vergi orqanları vergi inzibatçılığının təkmilləşdirilməsi sahəsində yeni hədəfləri müəyyən edir. İnformasiya cəmiyyətinin sürətli inkişafı, texnologiyaların tədricən cəmiyyətin bütün sferalarında önəmli yer tutması vergi xidmətinin iş prinsiplərində də yeni yanaşmaları zəruri etmişdir.

Bu məsələ vergi inzibatçılığında qarşıya qoyulmuş bir məqsədə - cəmiyyətdə könüllü əsaslara söykənən, kontaktsız mübadilə sistemi ilə münasibətlərin qurulmasına və vergi ödəyiciləri tərəfindən vergi öhdəliklərinin yerinə yetirilməsi üçün əlverişli şəraitin yaradılmasına və vergi inzibatçılığı xərclərinin azaldılmasına xidmət edir.

***- Rəhbərlik etdiyiniz şöbədə aparılan işlərin icra mexanizmi necə qurulub?***

- İlk növbədə, dövlət proqramları və digər rəsmi sənədlər əsasında Vergilər Nazirliyinə həvalə edilmiş tapşırıqların icrası diqqət mərkəzində saxlanılır. Vergilər Nazirliyinə aid tapşırıqlar şöbədə təhlil edilir və müvafiq Tədbirlər Planının layihəsi hazırlanır. Zərurət yarandıqda, layihə baxılmaq üçün aidiyyəti funksional idarələrə təqdim edilir.

Şöbə vergi inzibatçılığının təkmilləşdirilməsi istiqamətində İKT-nin istifadə imkanlarının genişləndirilməsi sahəsində həyata keçiriləcək tədbirləri müəyyən edir, vergi sisteminin normativ və metodoloji bazasının müasir qanunvericiliyin tələblərinə uyğunlaşdırılması ilə bağlı təkliflər verir, metodiki göstərişlərin, təlimatların, qaydaların və digər aktların layihələrinin hazırlanmasında iştirak edir, Vergilər Nazirliyinin struktur vahid və bölmələri arasında funksional əlaqələri təhlil edir, Mərkəzi Aparata təqdim edilən hesabatların həcmini və dövriliyini qiymətləndirir.

Bundan başqa, Vergi Məcəlləsi, vergitutma ilə bağlı digər normativ hüquqi aktlar, metodiki göstərişlər, təlimatlar və digər idarəetmə aktları üzrə vergi qanunvericiliyinin müddəalarının tətbiqi mexanizmi hazırlanır.

***- Təbii məsələdir ki, hər bir işin dəyəri onun nəticələri ilə ölçülür. Vergi inzibatçılığının təkmilləşdirilməsi sahəsində aparılan işlərdən hansı nəticələr gözlənilir?***

- Vergi inzibatçılığının təkmilləşdirilməsində İKT-nin istifadə imkanlarının genişləndirməsi tədbirləri nəticəsində aşağıdakılara nail olunacaqdır:

- vergi inzibatçılığını sadələşdirmək və təkmilləşdirməklə inzibatçılıq xərcləri əhəmiyyətli şəkildə azaldılacaq;
- vergidən yayınma hallarının qarşısının alınması məqsədilə strategiya və tədbirlər təkmilləşdiriləcək, bu sahədə vergi inzibatçılığı az riskli vahid sistem kimi formalaşdırılacaq;
- vergi siyasətinin səmərəliliyi daha da yüksələcək və vergilərin könüllü ödənilməsi səviyyəsi artırılacaq;
- vergi orqanlarında işçilərin fəaliyyətinin səmərəliliyi artırılacaq və müasir idarə etmə prinsipləri tətbiq olunacaq;
- vergi ödəyicilərinə göstərilən xidmətlər daha da yaxşılaşdırılacaq və məlumat əldə etmə imkanları genişləndiriləcək;
- vergi orqanlarının fəaliyyətində şəffaflıq səviyyəsinin artırılması məqsədilə daxili nəzarət mexanizmi təkmilləşdiriləcək;
- Vergilər Nazirliyinin rəhbərliyi üçün «Qərar qəbul etmə üzrə ekspert sistemi» yaradılacaq;
- işçilərin və idarələrin fəaliyyətinin qiymətləndirilməsi avtomatlaşdırılacaq və qiymətləndirmənin obyektivlik dərəcəsi yüksəldiləcək;
- beynəlxalq vergi münasibətləri daha da inkişaf edəcək və vergi sisteminin Avropa İttifaqının vergi sisteminə inteqrasiyası sürətlənəcəkdir.

***Yeri gəlmişkən...***
*Bu günlərdə Hafiz müəllimin 60 yaşı tamam olub. Yubileyi münasibətilə hörmətli həmkarımızı ürəkdən təbrik edir, ona cansağlığı, uzun ömür və işlərində uğurlar arzulayırıq.*

# Kameral vergi yoxlamaları

*Bu ilin yanvar-may ayları ərzində keçirilmiş kameral vergi yoxlamaları nəticəsində 22 milyon manatdan çox vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir*

Kameral vergi yoxlaması ilə səyyar vergi yoxlaması arasında əsas fərq onların keçirilmə qaydalarında əksini tapır: kameral vergi yoxlaması səyyar vergi yoxlamasından fərqli olaraq, yerlərə getmədən vergi ödəyicisi tərəfindən təqdim edilən vergi hesabatları, habelə mənbəyi bəlli olan digər sənədlər əsasında 30 gün müddətində həyata keçirilir. Təsadüfi deyil ki, beynəlxalq təcrübədə kameral vergi yoxlamasını «desk audit» (masa arxasında yoxlama) adlandırırlar.

Qeyd edək ki, kameral vergi yoxlamaları elektron və distant olmaqla iki formada aparılır.

Elektron kameral vergi yoxlamaları Vergilər Nazirliyində tətbiq olunan Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi (AVİS) vasitəsilə müvafiq alqoritmlər əsasında vergi bəyannamələrində aşkar edilən uyğunsuzluqlar nəticəsində həyata keçirilir. Qeyd edək ki, bu cür yoxlamalar elektron proqram vasitəsilə aparılır və çarpaz yoxlama nəticəsində bəyannamələrdə aşkar edilən uyğunsuzluqlar barədə vergi ödəyicisinə məktub göndərilir. Kameral vergi yoxlamasının bu formada aparılması vaxt itkisinə yol vermədən tez bir zamanda uyğunsuzluqları aşkar etməyə imkan verir.

Elektron uyğunsuzluq müəyyən edilməyən kameral vergi yoxlamaları isə vergi orqanlarının müvafiq strukturlarının əməkdaşları tərəfindən vergi ödəyicilərinin vergi orqanlarına təqdim etdiyi bəyannamə məlumatları, eləcə də baza məlumatları əsasında fərdi qaydada həyata keçirilən kameral vergi yoxlamalarıdır.

2006-cı ildən etibarən respublikanın vergi sistemində AVİS-in, 2007-ci ildən isə elektron bəyannamə sistemin tətbiqi istər inzibatçılıq, istərsə də nəzarətin təşkili baxımından kameral vergi yoxlamasının aparılmasında bir sıra müsbət dəyişikliklərə səbəb olub. Bu sistemin tətbiqi həm vergi ödəyiciləri, həm də kameral yoxlama aparan vergi orqanı üçün yeni keyfiyyət müstəvisinə çıxış üçün zəmin yaradıb. Vergi ödəyiciləri müntəzəm olaraq yenilənən elektron informasiya məkanına giriş və özlərinin vergi öhdəliklərinə daha çevik nəzarət etmək imkanı əldə ediblər. Kameral vergi yoxlaması AVİS-in müvafiq altsistemində avtomatik rejimdə müxtəlif alətlər vasitəsilə (vergi ödəyicisi barədə vergi orqanında olan gömrük bazasının məlumatları, vergi ödəyicisinin digər şəxslərlə olan ödənişləri barədə məlumatlar, vergi ödəyicisinin təqdim etdiyi digər bəyannamələrdəki məlumatlar, səyyar vergi yoxlamasının nəticələri barədə məlumatlar və s.) həyata keçirilir və bəyannamələrdəki nöqsanlar daha çevik incələnərək aşkar olunur. Qeyd edək ki, elektron bəyannamə sistemi vergi ödəyicisinə vergi orqanına gəlmədən və vergi orqanının əməkdaşı ilə təmasa girmədən, tam şəffaf şəkildə, onun üçün rahat olan mühitdə və istədiyi zamanda bəyannaməni tərtib edərək internet vasitəsilə təqdim etmək imkanı vermişdir. Məlumat üçün bildirək ki, cari ilin yanvar-may ayları ərzində 629 min 459 bəyannamə təqdim edilmişdir ki, bunların da 577 min 537-si (91,8%) elektron formada verilmişdir.

### Kameral vergi yoxlaması zamanı bəyannamələrdə aşkar edilən səhvlər

Vergi bəyannamələrinin kameral yoxlanılması zamanı aşkara çıxarılan nöqsanların xarakteri, vergi ödəyicisinin bəyannamə doldurarkən yol verdiyi səhvlər, həmin səhvlərin onun vergi öhdəliklərinə hansı formada təsir etməsi maraq doğuran məsələlərdəndir. Ümumiyyətlə, vergi bəyannamələrindəki nöqsanlar müxtəlif xarakterli ola bilər. Bu nöqsanlar mühasibin riyazi hesablamaları zamanı (təsadüfi), yaxud müəssisə rəhbərliyinin məqsədyönlü şəkildə (bilərəkdən) vergiləri azaltmaq cəhdi nəticəsində ortaya çıxa bilər. Bu baxımdan, sözügedən sahə üzrə savadlı vergi məsləhətçilərinə, bacarıqlı mühasiblərə ehtiyac duyulur.

Cari ilin yanvar-may ayları ərzində təqdim olunmuş 629 min 459 sayda bəyannamə üzrə proqram təminatı vasitəsilə 207 min 282 uyğunsuzluq aşkar edilmişdir ki, bunların da 125 min 984-ü (60,8%) sadələşdirilmiş vergi bəyannaməsi, qalan hissəsi isə digər vergi növləri üzrə olmuşdur. Qeyd edək ki, ötən ilin sonunda vergi bəyannamələrinə edilən dəyişikliklər vergi orqanı əməkdaşlarına vergi ödəyicilərinin xalis aktivləri barədə məlumat əldə edərək geniş təhlillər aparmağa imkan yaratmışdır. Bəyannamələrə edilən dəyişikliklər arasında sadələşdirilmiş vergi bəyannaməsinə 2 nömrəli Əlavənin tətbiqini xüsusi vurğulamaq lazımdır. Belə ki, əvvəllər sadələşdirilmiş vergi bəyannaməsində kifayət qədər məlumat bazası olmadığı üçün müxtəlif yanaşma və aspektlərdən təhlillər aparmaq da mümkün deyildi. Artıq sadələşdirilmiş vergi bəyannaməsinin 2 nömrəli Əlavəsi sayəsində alınmış, yararsız hala düşmüş və istifadə olunmuş qəbzlər barədə məlumat əldə etmək və bununla da sadələşdirilmiş vergi ödəyicisinin nə qədər qəbz təqdim etdiyi haqda kifayət qədər dəqiq məlumatlar almaq mümkündür. Bu dəyişiklik, həmçinin, vergi sistemində ilk dəfə olaraq ciddi uçot blanklarının hərəkətinə sistemli şəkildə nəzarət etməyə və bu istiqamətdə riskli vergi ödəyicilərini ilkin təhlillər əsasında müəyyənləşdirməyə imkan yaratmışdır.

Vergi orqanı bəyannamələrdə səhvə yol vermiş vergi ödəyicilərinin vergi öhdəliklərini yenidən hesablamaq və tutmaq hüququna malikdir. Belə ki, kameral yoxlama zamanı bəyannamələrdə vergilərin düzgün hesablanmaması, yəni vergi məbləğinin az və ya artıq göstərilməsi aşkar edildikdə 5 gün müddətində vergi orqanı tərəfindən vergi ödəyicisinə vergilərin hesablanmasına dair bildiriş göndərilir. Bildirişdə hesablamanın səbəbləri göstərilir. Ödəyici bu hesablama ilə razılaşmadıqda məhkəməyə şikayət etmək hüququna malikdir.

Bəyannamə hər hansı üzürlü səbəb olmadan təqdim edilmədikdə isə vergi əlaqəli məlumatlara əsasən hesablanır. Səyyar vergi yoxlaması keçirilərkən vergi orqanının təklifi əsasında həmin yoxlamanın keçirildiyi vaxta qədər yol verdiyi və kameral yoxlama zamanı ödəyicinin müəyyən edilən səhvləri 30 gün müddətində düzəltmək hüququ vardır. Ödəyici həmin müddət bitənədək yol verdiyi qanun pozuntusuna görə (faizlərin ödənilməsi istisna olunmaqla) məsuliyyət daşımır.

Əgər bəyannamədə yol verilmiş səhv verginin artıq məbləğdə ödənilməsinə gətirib çıxarıbsa, onda ödəyici vergi orqanlarına ərizə ilə müraciət edib öz hüquqlarını tələb edə bilər. Artıq ödənilmiş məbləğ vergi ödəyicisinin ərizəsindən sonra ya digər ödəmələr hesabına aid edilərək əvəzləşdirilir, ya da ona qaytarılır.

### Kameral vergi yoxlamaları nəticəsində büdcəyə təmin edilən daxilolmalar

2011-ci il ərzində keçirilmiş kameral vergi yoxlamaları nəticəsində 306,3 milyon manat əlavə vergi məbləği hesablanmış və 78,7 milyon manat vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin olunmuşdur. Bunlarla bərabər, ötən il elektron uyğunsuzluq müəyyən edilməyən kameral vergi yoxlamaları nəticəsində 191,5 milyon manat əlavə vergi məbləği hesablanmış və 47 milyon manat vəsait dövlət büdcəsinə ödənilmişdir. Onu da qeyd etmək lazımdır ki, cari ilin yanvar-may ayları ərzində keçirilmiş kameral vergi yoxlamaları nəticəsində 86,4 milyon manat əlavə vergi məbləği hesablanmış və 23,5 milyon manatın dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir. Cari ilin yanvar-may ayları ərzində 61 min 830 elektron uyğunsuzluq müəyyən edilmədiyi kameral vergi yoxlaması nəticəsində 47,1 milyon manat əlavə vergi məbləği hesablanmış, dövlət büdcəsinə 18,6 milyon manat vəsaitin ödənilməsi təmin edilmişdir.

**Arzu İBRAHİMOVA**

**2012-ci ilin yanvar-may ayları üzrə 1 işçiyə düşən orta aylıq real kameral hesablamaların sayı və məbləğinin müqayisəsi**




**2012-ci ilin yanvar-may ayları üzrə real kameral vergi yoxlamaları ilə əlavə hesablanmış vergi məbləğlərinin tədiyyələr üzrə bölgüsü**



# Vergi xidməti orqanlarında insan resurslarının inkişafı prioritetdir

*İyun ayının 28-də Vergilər Nazirliyinin Şamaxı rayonunda yerləşən Tədris Mərkəzində «Azərbaycan 2020: gələcəyə baxış» Konsepsiyasında vergi siyasətinin rolu» mövzusunda «dəyirmi masa» keçirilmişdir. Tədbirdə Vergilər Nazirliyinin və digər dövlət strukturlarının rəhbər vəzifəli şəxsləri, aparıcı ali təhsil müəssisələrinin professor və müəllim heyəti, qeyri-hökumət təşkilatlarının, kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etmişlər.*



### Müasir tələblərə cavab verən tədris müəssisəsi

«Dəyirmi masa» iştirakçıları əvvəlcə yaranmasının 10 ili tamam olmuş Tədris Mərkəzinin müasir inzibati binası ilə tanış olmuşlar.

Vergilər nazirinin müşaviri Ələkbər Məmmədov giriş sözündə iştirakçıları salamlayaraq aktual səciyyə daşıyan tədbirin Vergilər Nazirliyinin Tədris Mərkəzinin 10 illik fəaliyyətinə həsr olunduğunu qeyd etmişdir. O, «dəyirmi masa»da vergi sisteminin təkmilləşdirilməsi ilə bağlı faydalı rəy və təkliflərin ümumiləşdirilərək «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasının hazırlanması zamanı nəzərə alınacağını bildirmişdir. Tədbirin əvvəlində Tədris Mərkəzinin fəaliyyətindən bəhs edən qısametrajlı filmi tədbir iştirakçıları maraqla izləmişlər.

### Vergi sistemində islahatların gələcək prioritetləri

Nazirliyin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi Akif Musayev «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında vergi siyasətinin rolu» mövzusunda təqdimatında bildirmişdir ki, hazırlanmaqda olan konsepsiyanın başlıca hədəfləri ölkədə çoxşaxəli, səmərəli və innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması; elmin, mədəniyyətin inkişafında, ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunması; əhalinin rifahının qabaqcıl beynəlxalq standartlara uyğun səviyyəyə çatdırılmasıdır. Azərbaycanın dünyada sürətlə inkişaf edən ölkələrdən biri olduğunu vurğulayan baş idarə rəisi əlavə etmişdir ki, 2020-ci ilədək respublikada ümumi daxili məhsulun 2 dəfəyədək artırılması qarşıda ciddi vəzifə kimi dayanır: «Hazırlanacaq konsepsiyada sosial-ictimai həyatın bütün sahələrinin, o cümlədən iqtisadiyyatın ayrılmaz tərkib hissəsi olan vergi sisteminin təkmilləşdirilməsi tədbirləri də əksini tapacaqdır».

Təqdimatda vurğulanmışdır ki, Azərbaycanın vergi sistemi son illər ölkənin inkişaf sürətinə uyğun təkmilləşmə və tərəqqi yolu keçərək tam institusional quruma çevrilmişdir. Vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin sayı və keyfiyyəti yüksəlmiş, vergi bəyannamələrinin, ƏDV hesab-fakturalarının, habelə vergi borclarının elektron formada verilməsi təmin olunmuşdur. «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasının hazırlanması zamanı isə institusional, texnoloji və sosial modernləşməyə xüsusi diqqət yetiriləcəkdir: «İnstitusional modernləşmədə məqsəd mülkiyyət hüququnu, rəqabət müqavilələrini qorumaqla bazar münasibətlərinə dəstək verməkdir. Texnoloji modernləşdirmə intensiv investisiya qoyuluşlarını, innovasiyaları və s. təmin etməklə iqtisadi inkişafa şərait yaradır. Sosial modernləşmə isə informasiya yayımını təmin etməklə, biznes iştirakçıları arasında partnyorluq münasibətlərini möhkəmləndirməklə, fərdi davranışı ümumi sərvətə çevirməklə, resursları səfərbər etməklə cəmiyyətin ümumi məqsədlərinə xidmət edir».

### Aktiv vergi siyasətinə keçid zərurətdir

Təqdimatda qeyd olunmuşdur ki, institusional, texnoloji və sosial modernləşmənin məqsədi aktiv vergi siyasətinin formalaşdırılmasıdır. Aktiv vergi siyasətinin reallaşdırılması yolu ilə iqtisadi inkişafın təmin edilməsi və həyat səviyyəsinin yüksəldilməsi, sosial partnyorluq prinsipinin formalaşdırılması, cəmiyyətin modern inkişaf mərhələsinə keçidinin təmin olunması nəzərdə tutulur. Aktiv vergi siyasəti vergi siyasətinə yeni yanaşma olub, təkrar istehsalın genişləndirilməsini, müasir texnologiyalardan istifadəni, innovativ layihələrin reallaşdırılmasını, kapitalın və əmək resurslarının məhsuldarlığının yüksəldilməsini, biznes mühitinin daha da sağlamlaşdırılmasını təmin etməlidir. Akif Musayev həmçinin bildirmişdir ki, vergi yükünün tədricən istehsaldan istehlaka keçirilməsində məqsəd sahibkarlıq subyektləri üçün daha əlverişli mühitin, eləcə də sabit və ədalətli vergi sisteminin yaradılmasıdır.

Təqdimatda, həmçinin, vergi siyasətinin gələcək inkişaf istiqamətlərindən bəhs olunmuş, fiziki şəxslərin gəlir vergisinin optimallaşdırılmasının, nağdsız ödənişlərin stimullaşdırılmasının, vergi ödəyiciləri ilə vergi orqanları arasında partnyorluq prosedurunu tənzimləyən normativ-hüquqi bazanın yaradılmasının, vergi bəyannamələrinin əvvəlcədən doldurulması sisteminin tətbiqinin, elektron auditin və digər innovativ yeniliklərin tətbiqinin əhəmiyyəti vurğulanmışdır.

### İnsan resurslarının inkişafı diqqət mərkəzindədir

Vergilər nazirinin müşaviri Ələkbər Məmmədov «Vergi sistemində insan resurslarının inkişafında təlim və tədrisin yeri» mövzusundakı təqdimatında bildirmişdir ki, yaxın perspektivdə vergi siyasətinin başlıca prinsipi vergilərin məcburi yığılmasından könüllü yığılmasına keçidi təmin etməkdir. Burada məqsəd vergi qanunvericiliyini təkmilləşdirmək, vergi inzibatçılığını möhkəmləndirmək, innovativ islahatlar aparmaqla şəffaflığı təmin etmək, vergi xidmətinin ünvanlılığını artırmaqdır. Bildirilmişdir ki, qarşıda duran bu və digər vəzifələrin uğurlu icrası üçün hələ 2004-ü ildə Vergilər Nazirliyində «İnsan resurslarının inkişafı» Konsepsiyası qəbul olunmuşdur. Ə.Məmmədov həmçinin qeyd etmişdir ki, konsepsiyanın əsas komponentləri təbliğat, treninq, qiymətləndirmə, həvəsləndirmə və insan resurslarının informasiya bazasıdır: «İnsan resursları olmadığı təqdirdə, qarşıya qoyulmuş məqsədlərə nail olmaq qeyri-mümkündür. İnsan resurslarının inkişafı Vergilər Nazirliyinin siyasətində başlıca prioritetlərdən biridir. Vergilər Nazirliyi 12 Ərazi Vergilər İdarəsini, 4 departamenti və Tədris Mərkəzini özündə birləşdirir».

Təqdimatda bildirilmişdir ki, «İnsan resurslarının inkişafı» Konsepsiyasının əsas fəaliyyət istiqamətləri vergi orqanlarında insan resurslarının müasir beynəlxalq tələblərə cavab verməsi üçün daimi tədris proqramları əsasında peşəkar səviyyənin artırılması; bu sahə üzrə fəaliyyətin obyektiv meyarlar əsasında qiymətləndirilməsi və işçilərin fəaliyyət nəticələrinə görə həvəsləndirilməsi; kadrlar haqqında informasiya bazasının formalaşdırılması və onun əsasında insan resurslarının idarə edilməsidir.

### Qarşılıqlı əlaqələr genişləndirilməlidir

Beynəlxalq əlaqələr sahəsində nailiyyətlərdən söz açan Ə.Məmmədov bildirmişdir ki, Vergilər Nazirliyi son illərdə Vergi Administrasiyalarının Avropadaxili Təşkilatı (IOTA), Beynəlxalq Antikorrupsiya Akademiyası (ACA), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Beynəlxalq Vergi və İnvestisiya Mərkəzi (ITIC), ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAID), Avstriyanın Vergi Akademiyası, İrlandiyanın Vergi İnstitutu ilə əlaqələr qurmuşdur. BMT İnkişaf Proqramı çərçivəsində əməkdaşlığın nəticəsi kimi yaxın perspektivdə Vergilər Nazirliyinin Tədris Mərkəzinin nəzdində Regional Treninq Mərkəzinin yaradılması nəzərdə tutulur.

Müzakirələr zamanı AMEA İqtisadiyyat İnstitutunun direktoru İsa Alıyev, Nazirlər Kabinetinin İqtisadiyyat şöbəsinin müdiri Şahin Sadıqov, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının prorektoru Əlikram Abdullayev, Bakı Biznes Universitetinin rektoru İbad Abbasov, Azərbaycan Dövlət İqtisad Universitetinin prorektoru Əvəz Bayramov, Təhsil Nazirliyinin aparıcı mütəxəssisi Afət Süleymanova, Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü Dilarə Vəliyeva, «Gənc mühasiblər» İctimai Birliyinin sədri Solmaz Əliyeva və digərləri «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasını qarşıdakı illərdə davamlı və sabit inkişafın təmini baxımından strateji əhəmiyyətli sənəd kimi dəyərləndirmişlər. Çıxışlarda bildirilmişdir ki, ölkə iqtisadiyyatında xüsusi yeri olan vergi xidməti orqanları ilə elmi və ali təhsil müəssisələri, o cümlədən qeyri-hökumət təşkilatları arasında əməkdaşlığın daha da genişləndirilməsi son dərəcə vacibdir.

«Dəyirmi masa»da qeyri-hökumət təşkilatları və kütləvi informasiya vasitələrinin nümayəndələrini maraqlandıran suallar da ətraflı cavablandırılmışdır.

## RƏYLƏR



### «İqtisadi münasibətlər inkişaf etdikcə idarəetmə də təkmilləşməlidir»

***Bakı Biznes Universitetinin rektoru, iqtisad elmləri doktoru, professor İbad Abbasov:***

«Region şəraitində belə yüksək infrastruktura malik bir təhsil ocağının fəaliyyət göstərməsini təqdir edirəm. Mərkəzin iş şəraiti və elmi bazası qənaətbəxş səviyyədədir, burada ciddi iqtisadi mövzular ətrafında maraqlı «dəyirmi masa»ların, konfransların təşkili də müsbət hadisədir.

Müasir dövrdə iqtisadiyyatın dövlət tənzimlənməsində xüsusi yeri olan vergi sisteminin davamlı şəkildə təkmilləşdirilməsi son dərəcə vacib məsələdir. Hesab edirəm ki, Vergilər Nazirliyi bu sahədə çox səmərəli çalışır və burada idarəçilik müasir menecment prinsipləri əsasında qurulmuşdur. Bu da təbiidir - biz bu gün idarəetmənin yüksək səviyyədə təşkilindən danışırıqsa, bu prosesin elmi əsaslar əsasında qurulmasına ciddi yanaşmalıyıq. Bu mənada, Tədris Mərkəzində yüksək səviyyəli tədris üçün hər cür şəraitin yaradıldığı qənaətindəyəm».



### «Vergilər Nazirliyi ilə əlaqələri genişləndirmək niyyətindəyik»

***AMEA-nın İqtisadiyyat İnstitutunun direktoru, iqtisad elmləri doktoru, professor İsa Alıyev:***

«Tədris Mərkəzi, ümumilikdə, regionda idarəetmənin təkmilləşdirilməsi sahəsində ixtisaslaşmış mühüm təhsil ocaqlarından biridir. Mərkəzin yüksək iş şəraitinə və təchizata malik olması burada vergi əməkdaşları üçün tədris kurslarının dərin elmi prinsiplər üzərində təşkilinə imkan yaradır. Bizə məlumat verildi ki, Tədris Mərkəzində vergi əməkdaşları üçün iqtisadi mövzularda mühazirələr oxunur. Gələcəkdə İqtisadiyyat İnstitutunun aparıcı elmi işçiləri də həmin mühazirələrdə iştirak edə bilərlər. Tədris Mərkəzinin müəllimləri üçün xüsusi treninqlərin təşkili ilə bağlı nəzəri kursların keçirilməsi də mümkündür. Eyni zamanda, institutda Vergilər Nazirliyinin həyata keçirmək istədiyi layihələrə elmi rəylər verilə bilər. Ümumilikdə, nazirliklə əməkdaşlığı gücləndirmək niyyətindəyik və çox şadıq ki, bununla bağlı təkliflərimiz müsbət qarşılanır».



### «İnsan resurslarının inkişafına xüsusi diqqət yetirilir»

***Azərbaycan-Türk İş Adamları Birliyinin baş katibi Rəşad Rəsullu:***

«Vergilər Nazirliyinin Tədris Mərkəzində müxtəlif tədbirlərin təşkili üçün normal şəraitin təmin edilməsi işgüzar dairələr arasında əlaqələrin genişləndirilməsinə də imkan yaradır. Belə «dəyirmi masa»ların informasiya və təcrübə mübadiləsi baxımından əhəmiyyəti xüsusilə böyükdür və Tədris Mərkəzinin fəaliyyəti Vergilər Nazirliyində insan resurslarının davamlı şəkildə inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. İnsan resursları müasir korporativ idarəetmənin vacib şərtlərindən biridir. Bu mənada, Vergilər Nazirliyinin Tədris Mərkəzinin istifadəyə verilməsi vergi xidməti orqanlarında insan resurslarının inkişafına xüsusi diqqətin olmasından xəbər verir. Mərkəzdə vergi əməkdaşlarının peşə hazırlığının yüksəldilməsi, ixtisaslarının artırılması üçün yaradılmış şərait müasir tələblərə tam cavab verir. Tədris prosesinin müasir texnoloji yeniliklər əsasında təşkilini uğurlu addımlardan biri kimi qiymətləndirirəm».



### «Peşə hazırlığına strateji yanaşma mövcuddur»

***Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının prorektoru Əlikram Abdullayev:***

«Vergilər Nazirliyində kadrların ixtisasının artırılmasına və peşə hazırlığının yüksəldilməsinə strateji yanaşma mövcuddur. Tədris Mərkəzinin maddi-texniki bazası çox yüksəkdir. Burada tədris üçün hər cür lazımi şərait yaradılıb. Yataqxana, tədris, idman kompleksləri bir-birini tamamlayır. Diqqət çəkən vacib məsələlərdən biri də tədrisə innovativ yanaşmadır. Bu prosesi təşkil edən insanların novatorluğu aydın görünür. Ümumilikdə, belə mərkəzlərin yaradılmasını və fəaliyyətini tam dəstəkləyirəm.

Tədris Mərkəzi həm də faydalı müzakirələrin aparılması üçün çox yaxşı məkandır. Burada müxtəlif mövzularda seminarlar, konfranslar təşkil olunur, səmərəli müzakirələr aparılır. Bu da öz növbəsində iqtisadi fəaliyyət subyektlərinin qarşılıqlı faydalı əməkdaşlığına, səmərəli təşəbbüslərin irəli sürülməsinə imkan yaradır».



### «Tədris Mərkəzi elmin inkişafına mühüm töhfədir»

***Azərbaycan Respublikası Prezidenti yanında Elm Fondunun aparıcı mütəxəssisi Abbas Əsgərov:***

«Vergilər Nazirliyinin Tədris Mərkəzinin fəaliyyəti vergi əməkdaşlarının peşə hazırlıqlarının yüksəldilməsi məqsədilə yaradılmış şərait digər dövlət qurumları üçün də müsbət sayıla ola bilər. Tədris Mərkəzi ilə tanışlıq zamanı bu təhsil müəssisəsinin müasir idarəçilik əsasında işlədiyini gördük.

Doğrusu, Mərkəzin bu cür müasir binaya və təchizata malik olduğunu təsəvvür etmirdik. Burada tədrisin informasiya texnologiyalarının ən son nailiyyətləri əsasında qurulması alqışlanmalıdır. Mərkəzdə həm dinləyicilər, həm də müəllimlər üçün normal iş şəraiti yaradılmışdır. Belə mərkəzlərin mövcudluğu, ümumilikdə, elmimizin inkişafına mühüm töhfə olmaqla yanaşı, Vergilər Nazirliyinin müasir iş üslubunun, innovativ yeniliklərə meyilliliyinin nəticəsidir».

**Samir MUSTAFAYEV**

# «BizNewsAsia» jurnalı:

## *Azərbaycanda əlverişli biznes mühiti mövcuddur*




Dünyanın ən nüfuzlu iqtisadi nəşrlərindən biri, Filippində böyük tirajla nəşr olunan «BizNewsAsia» jurnalının Azərbaycana həsr olunmuş xüsusi buraxılışında ölkəmizin inkişafını əks etdirən məqalələrə geniş yer verilib. Jurnalda Azərbaycan iqtisadiyyatının inkişafı, siyasi-sosial sahədə baş verən mühüm dəyişikliklər, ölkəmizin dünya dövlətlərinin enerji təminatında mühüm rolu və digər məsələlər barədə məqalə və müsahibələr dərc olunub. Jurnal respublikamızın dünyada artan nüfuzundan, iqtisadi və siyasi cəhətdən əldə etdiyi nailiyyətlərdən, həyata keçirilən kompleks islahatların səmərəliliyindən bəhs edən məqalələrə də geniş yer verib.

Xüsusi buraxılışda qeyd olunur ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən ardıcıl və məqsədyönlü sosial-iqtisadi siyasət bütün sahələrdə davamlı inkişafa stimul verməkdədir. Son illər neft gəlirlərinin iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı strateji istiqamətlərə yönəldilməsi qeyri-neft sektorunun aparıcı mövqeyə çıxmasına şərait yaradıb. Neftdənkənar sahələr - sənaye, informasiya-kommunikasiya texnologiyaları, turizm daha perspektivli və gələcək tərəqqi üçün mühüm sektorlar sayılır. Bundan başqa, özəl sektorun yüksək inkişafı qarşıdakı onillik üçün güclü investisiya axınına yol açır.

Nəşrin analitiklərinin qənaətinə görə, hər bir ölkənin yüksək inkişafı onun azad biznes mühiti və sahibkarlıq sektorundakı vəziyyətlə bağlıdır. Bazar iqtisadiyyatının əsas prinsiplərindən olan azad biznes və özəl sektora dövlət dəstəyi ümumi inkişafın göstəricisinə çevrilir. Yəni dövlətin təmin etdiyi sərbəst biznes mühiti ölkədəki azad sahibkarlığın inkişafını stimullaşdırır, ona geniş meydan verir. Bu mənada, bazar iqtisadiyyatını əsas meyar seçən Azərbaycan hökumətinin biznes mühiti ilə bağlı həyata keçirdiyi tədbirlər mühüm əhəmiyyət kəsb edir. Respublikamızda azad sahibkarılığın inkişafının göstəriciləri birbaşa dövlətin yaratdığı biznes mühitinin vəziyyəti ilə sıx bağlıdır. Eyni zamanda, iqtisadiyyatın inkişafının əsas göstəricilərindən biri ölkədəki xarici sərmayəçilərə yaradılan mühitin şəffaflıq dərəcəsindən asılıdır.

«BizNewsAsia» jurnalının mövqeyinə görə, Azərbaycan hökuməti ölkədə makroiqtisadi sabitliyin saxlanması, milli iqtisadi potensialın artırılması, neft sektoru amilinin azalması və qeyri-neft sektorunun inkişafı, əlverişli investisiya və biznes mühitinin yaradılması siyasəti yürüdür. Azərbaycan iqtisadiyyatı dünya maliyyə-iqtisadi böhranına uğurla davam gətirib və artım tendensiyasını saxlayıb. Son illər ərzində məhz qeyri-neft sektorunun artımı neft hasilatının və dünyada neftin qiymətlərinin azalması fonunda ümumi iqtisadi artımı təmin edib. Həyata keçirilən iqtisadi strategiya respublikamızın siyasi və iqtisadi sabitliyi üçün dərin əsaslar yaradıb, inkişafı sürətləndirib. Ölkəmizdə güclü maliyyə resursları formalaşıb. Respublikamızın xarici ticarət dövriyyəsindəki pozitiv meyillər, neft ixracının coğrafiyasının genişlənməsi, yeni nəql marşrutlarının istifadəyə verilməsi və yanacaq resurslarının nəqlinin çoxalması, qeyri-neft sektorunun valyutatutumlu sahəyə çevrilməsi Azərbaycanın orta gəlirli ölkələr statusuna malik olmasını möhkəmləndirib.

*«BizNewsAsia» nəşrində, həmçinin, qeyd olunur ki, Azərbaycan bölgədə potensial sərmayədar kimi çıxış edir. Bütün bunlarla yanaşı, Azərbaycanda əlverişli sərmayə mühitinin təmin olunması xarici dövlətlərin investorlarının ölkəmizə axınını da sürətləndirib. Respublikamızda şəffaf və cəlbedici sərmayə mühiti xarici sərmayədarların investisiya fəallığına əlverişli zəmin yaradıb. Jurnalın analitiklərinin fikrincə, Azərbaycanın investisiya imkanları çox cəlbedicidir. Bu, xarici sərmayə qoyuluşlarının artım dinamikası üçün əlverişli imkanlar yaradır.*

**E.CƏFƏRLİ**

# Pekində beynəlxalq tədbir

Bu günlərdə Çin Xalq Respublikasının Pekin şəhərində Azərbaycan Respublikasının dövlət orqanlarının əməkdaşları üçün ÜTT-yə daxilolma məsələləri üzrə seminar keçirilmişdir. On iki gün davam edən seminarda on təqdimat keçirilmiş, səfərlər olmuş və mövzu çərçivəsində geniş müzakirələr aparılmışdır.

Tədbirdə Çinin ÜTT-yə üzv olması ilə bağlı təcrübəsi, Çinin bu quruma üzv olduqdan sonrakı 10 il ərzində əldə etdiyi nailiyyətləri haqqında danışılmış, inkişaf etməkdə olan ölkələrin ÜTT ilə münasibətləri və ticarət liberallaşması ilə bağlı nəzəri müzakirələr aparılmışdır. Eyni zamanda, quruma daxilolma danışıqlarının mahiyyəti, bu danışıqların prinsip və elementləri, danışıqlara hazırlıq, onların həyata keçirilməsi və danışıqlar zamanı kompromis, ÜTT-yə daxilolma danışıqları üzrə strategiya və təcrübə ilə bağlı məsələlər müzakirə olunmuşdur. Seminarda Vergilər Nazirliyini Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəis müavini Mahəddin Namazov təmsil etmişdir.

## vergi taqvimi

| İYUL | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | | | **1** |
| 2 | 3 | 4 | 5 | 6 | 7 | **8** |
| 9 | 10 | 11 | 12 | 13 | 14 | **15** |
| **16** | 17 | 18 | 19 | **20** | 21 | **22** |
| 23 | 24 | 25 | 26 | 27 | 28 | **29** |
| 30 | 31 | | | | | |

Qeyd: ***Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.***

**Ödənilən vergi:**

**16 iyul** - «(1)» və «(2)».
**20 iyul** - «3», «4», «8», «9», «10.1», «10.2», «10.3» və «11».

**«(1) və (2)» - Gəlir və mənfəət vergisi:** Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir. Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.

*Birinci metod:* Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.

*İkinci metod:* Cari rübdəki gəlirin məbləği keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyən edilir.

Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün yuxarıdakı iki mümkün metoddan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda, vergi orqanı birinci metodu tətbiq edir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı birinci metodu tətbiq edir. Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«9» - Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üzrə hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxs hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənməli olan verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür. Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər. Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür. Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür. Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«11» - Dövlət rüsumu:** Dövlər rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür. «Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.

# Vergi ödəyicilərinə xidmət sahəsində əməkdaşlıq

Bu günlərdə Lissabon şəhərində Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Portuqaliya Respublikasının Vergi və Gömrük İdarəsinin nümayəndələri arasında vergi ödəyicilərinə xidmət sahəsində təcrübə mübadiləsi məqsədilə görüş keçirilmişdir. Bildirilmişdir ki, Portuqaliya vergi administrasiyasında vergi ödəyicilərinə xidmət strukturları kimi Vergi ödəyicilərinə keyfiyyətli xidmət departamenti, Kommunikasiya və vergi ödəyicilərinə dəstək və onun tərkib hissələri kimi «Call Centre» və yerli orqanlarda xidmətin təşkili, internet səhifəsinin təşkili və maarifləndirici nəşrlərin hazırlanması ilə məşğul olan şöbələr fəaliyyət göstərir. Vergilər Nazirliyinin nümayəndələri Portuqaliya Respublikasının Vergi və Gömrük İdarəsinin nümayəndələrinə Azərbaycanın vergi sistemi, eləcə də vergi ödəyicilərinə xidmət siyasəti barədə məlumat vermiş, onlara nazirliyin internet səhifəsi, «Call Centre», vergi sistemi və vergi növləri, həyata keçirilən təbliğat və maarifləndirmə işləri ilə bağlı bukletlər və digər nəşrlər təqdim etmişlər. Vergilər Nazirliyinin nümayəndələri səfər çərçivəsində Portuqaliyanın Vergi və Gömrük İdarəsinin strukturuna daxil olan əsas, regional və yerli «Call Centre»ləri ziyarət etmiş, «Call centre»lərin idarə edilməsi, fəaliyyəti və iş prinsipləri, eləcə də vergi ödəyiciləri ilə əlaqənin idarə edilməsi sistemi ilə əyani tanış olmuşlar.

Tədbirdə Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət idarəsinin rəisi Elçin Məmmədov və Vergi ödəyicilərinə xidmət idarəsinin Telefon-məlumat şöbəsinin rəisi Məhəmməd Yunusov iştirak etmişlər.

## mühasibat

# Amortizasiya metodunun təyin olunması

Qulu Soltanov,
sərbəst auditor

***Əvvəli ötən sayımızda***

Göründüyü kimi, 2007 - 2012-ci illərdə aktivin amortizasiya olunan dəyəri hər il müxtəlif məbləğlərdə azalan formada davam etmişdir. 2007-ci ildə aktivin may ayından başlayaraq istismara qəbul olunmasına baxmayaraq, Vergi Məcəlləsinin 114.6-cı maddəsinə uyğun olaraq həmin vergi ilinin sonunda 25% illik norma tətbiq olunmaqla amortizasiya hesablanmışdır. 2013-cü ildə də aktivin yanvar - may aylarında istismar olunmasına baxmayaraq, ilin sonuna qədər istismar olunmamasına görə həmin ilə amortizasiya hesablanmamışdır. Ona görə də ləğv zamanı əsas vəsaitin vergitutma üzrə qalıq dəyəri 889 manat göstərilməlidir (mühasibat məqsədləri üçün isə sıfırdır).

Amortizasiya ayırmaları Vergi Məcəlləsinə uyğun tələblərdir və mühasibat uçotunda düz xətt metodunu tətbiq edən mühasiblər vergi uçotunda amortizasiya ilə bağlı aşağıdakı ikili yazılışlar verilir *(cədvəl 1)*.

Mühasibat və vergi uçotunda amortizasiya ayırmalarının fərqli olduğunu digər cədvəldən bir daha aydın görmək olar *(cədvəl 2)*.

Təhlil olunmuş misal üzrə mühasiblərin bilməli olduğu fərqli əməliyyatlar aşağıdakılardır:

- Mühasibat uçotunda tam 5000 manat amortizasiya ayırmaları kimi xərclərə aid edildiyi halda, vergi uçotunda 4111 manat amortizasiya ayırmaları kimi, qalan 889 manat isə ləğv olunmuş əsas vəsaitin qalıq dəyəri kimi Vergi Məcəlləsinin 114.6-cı maddəsinə uyğun olaraq gəlirdən çıxılan xərclərə aid edilir.
- Hər il mühasibat məqsədləri üçün hesablanan amortizasiyanın məbləği vergitutma məqsədləri üçün hesablanan amortizasiyanın məbləğindən fərqli olduğuna görə, mühasibat məqsədləri üçün hesablanan mənfəətin məbləği də vergitutma məqsədləri üçün hesablanan mənfəətin məbləğindən fərqli olacaqdır. Bu səbəbdən də təxirə salınmış vergi aktivi və ya təxirə salınmış vergi öhdəlikləri yarana bilər.
- 2013-cü ildə mühasibat məqsədləri üçün 348 manat amortizasiya hesablanır, vergitutma məqsədləri üçün isə hesablanmır.
- 2007-ci ildə mühasibat məqsədləri üçün amortizasiya 5 ay üzrə hesablanır, vergitutma məqsədləri üçün isə illik normanı tam tətbiq etməklə hesablanır.
- Bütün bu fərqlərin yaranmasına səbəb vergitutma məqsədləri üçün amortizasiyanın yalnız bir metodu - qaydası, mühasibat məqsədləri üçün isə müstəqil seçim əsasında 3 müxtəlif metodun tətbiq olunmasıdır.

***Davamı növbəti sayımızda***

Cadval 1

| Əmaliyyatların mazmunu | Vergitutma maqsadlarina uyğun ananavi uçot | | *Vergi uçotu* | | *Mablağ* |
|---|---|---|---|---|---|
| | Debet | Kredit | Debet | Kredit | |
| 2007-ci ilin may ayında avadanlıq alınıb - ƏDV-siz mablağ | 08 | 60 | Kapitallaşdırma üçün aktivlar | Sair kreditor borcları | 5000 |
| Əsas mablağin ƏDV-si | 19 | 60 | Digar aktivlar | Sair kreditor borcları | 900 |
| Alınmış avadanlıq istismara verilib | 01 | 08 | Maşınlar, avadanlıq va hesablama texnikası | Kapitallaşdırma üçün aktivlar | 5000 |
| Avadanlığın ƏDV-siz dayari malsatana ödanilib – bank hesabından | 60 | 51 | Sair kreditor borcları | Pul vasaitlari | 5000 |
| Əsas mablağin ƏDV-si malsatanın ƏDV depozit hesabına ödanilib – ƏDV depozit hesabından | 60 | 51 | Sair kreditor borcları | Pul vasaitlari | 900 |
| Va ya asas mablağin ƏDV-si malsatanın ƏDV depozit hesabına ödanilib - bank hesabından | 60 | 51 | Sair kreditor borcları | Pul vasaitlari | 900 |
| ƏDV avazlaşdirilir – alınmış VHF üzra | 68 | 19 | Dövlat büdcasina vergi öhdalikləri | Digar aktivlar | 900 |
| Amortizasiya hesablanıb, avadanlıq agar istehsal maqsadlidirsa – 2007-2013-cü illarda | 20 | 02 | Galirdan çıxılan xarc | Maşınlar, avadanlıq va hesablama texnikası -Amortizasiya | 4111 |
| Va ya amortizasiya hesablanıb, avadanlıq agar inzibati maqsadlidirsa – 2007-2013-cü illarda | 26 | 02 | Galirdan çıxılan xarc | Maşınlar, avadanlıq va hesablama texnikası -Amortizasiya | 4111 |
| Avadanlığın istismara yararsız olduğuna göra lağvetma aktı tartib olunaraq tanınması dayandırılıb - ilkin dayarina | 47 | 01 | X | Maşınlar, avadanlıq va hesablama texnikası | 5000 |
| Hamin aktivlarin yığılmış amortizasiya mablaği silinir | 02 | 47 | Maşınlar, avadanlıq va hesablama texnikası - Amortizasiya | X | 4111 |
| Avadanlığın balans dayari silinir | 80 | 47 | Galirdan çıxılan xarc | X | 889 |
| Vergi Macallasinin 159.5-ci maddasina asasa ƏDV hesablanır (889 x 18%) | 26 | 68 | Galirdan çıxılan xarc | Dövlat büdcasina vergi öhdaliklari | 160 |

Cadval 2

| İl | İlkin dayar | Mühasibat uçotu | | Vergi uçotu | | Farq | |
|---|---|---|---|---|---|---|---|
| | | İllik amortizasiya | Yığılmış amortizasiya | İllik amortizasiya | Yığılmış amortizasiya | İllik amortizasiya | Yığılmış amortizasiya |
| 2007 | 5000 | 487 | 487 | 1250 | 1250 | -763 | -763 |
| 2008 | 5000 | 833 | 1320 | 938 | 2188 | -105 | -868 |
| 2009 | 5000 | 833 | 2153 | 703 | 2891 | 130 | -738 |
| 2010 | 5000 | 833 | 2986 | 527 | 3418 | 306 | -432 |
| 2011 | 5000 | 833 | 3819 | 396 | 3814 | 437 | 5 |
| 2012 | 5000 | 833 | 4652 | 297 | 4111 | 536 | 541 |
| 2013 | 5000 | 348 | 5000 | 0 | 4111 | 348 | 889 |
| **CƏMİ** | x | **5000** | x | **4111** | x | **889** | x |

xarici ölkələrdən vergi xəbərləri

# Yaponiyada xarici elektron kitab ticarəti vergiyə cəlb ediləcək

Yaponiya hökuməti ölkə ərazisində elektron kitab ticarəti ilə məşğul olan xarici şirkətlərə istehlak vergisi (bu, ƏDV-nin yerli variantıdır) qoymağı planlaşdırır. Planı artıq maliyyə naziri Dzyun Adzumi təsdiqləyib . Hökumətin bu qərarı xarici şirkətlərin malik olduqları rəqabət üstünlüyünün aradan qaldırılması məqsədini daşıyır. Məsələ bundadır ki, Yaponiyanın elektron kitablar satan yerli şirkətləri istehlak vergisi ödəyirlər. Bu vəziyyət onları məcbur edir ki, vergi ödəməmək üçün başqa ölkələrdə qeydiyyata alınsınlar. Xatırladaq ki, ölkədə qüvvədə olan qanun ötən əsrin 80-ci illərinin sonlarında qəbul olunub və o vaxtlar elektron ticarət anlayışı hələ formalaşmamışdı.

Yaponiya hökumətini hərəkətə gətirən səbəb yaxın gələcəkdə dünyanın ən böyük elektron kitab şirkətlərindən birinin burada öz biznesini qurmaq planları ilə bağlıdır. Həmin şirkət artıq Yaponiyada internet üzərindən musiqi və proqram təminatı satır və heç bir vergi ödəmir. (Bununla belə, başqa müsbət nümunə də var: məşhur Amerika şirkətlərindən biri, Yaponiya qanunçuluğunda boşluğun olmasına baxmayaraq, onlayn ticarət üçün könüllü şəkildə vergi ödəyir).

Yaponiya hökumətinin hədəfi Avropa İttifaqı təcrübəsini tətbiq etməkdir - Aİ 2003-cü ildə elektron malların ticarəti ilə məşğul olan şirkətlərin üzərinə Birlik ölkələrindən birində uçota durmaq və əlavə dəyər vergisi ödəmək öhdəliyi qoyub.

## Moldova ƏDV qəbzlərinin elektron qeydiyyatına keçdi

Ölkə sahibkarları iyulun 1-dən başlayaraq 100 min leydən artıq ƏDV qəbzlərini ölkənin vergi xidmətinin saytında qeydiyyatdan keçirməyə başlayıblar. Ölkənin baş vergi orqanı bunu vergidən yayınmaya qarşı daha təsirli vasitə hesab edir.

Birinci mərhələdə qəbzlərin qeydiyyatı dövlət vergi xidməti orqanlarına və onun bölmələrinə xidmət göstərən sahibkarlara tətbiq olunacaq. Gələn il yanvarın 1-dən isə bu tələb ƏDV qəbzlərinin məbləği 50 min leydən artıq olan bütün iqtisadi qurumlara şamil ediləcək. ƏDV üzrə qəbzlərin qeydiyyatdan yayındırılması halında hər bir sənəd üçün 3600 ley məbləğində cərimə qoyulacaq.

## Belarusda e-ticarət avtomatları vergi orqanlarının nəzarət sisteminə qoşulub

İyulun 1-dən tətbiq olunan qaydaya əsasən, ölkə ərazisindəki elektron ticarət aparatları yalnız vergi orqanının nəzarət sisteminə qoşulandan sonra fəaliyyət göstərə bilər. Vergi orqanlarının nəzarət sistemi xüsusi elektron qurğudur və mobil rabitə vasitəsilə ticarət avtomatlarına daxil olan məbləği məsafədən məlumat mərkəzinə ötürür.

Bu sistemin elektron ticarət aparatlarına tətbiq olunması həmin obyektlərdə tam və dəqiq uçotun aparılmasına imkan yaradır. Hökumətin mövqeyinə görə, bu sistemin əsaslandığı texnologiya beynəlxalq təcrübəyə uyğundur, beynəlxalq təcrübədə informasiyanın operativ ötürülməsinə üstünlük verilir. Avtomatların vergi nəzarət sisteminə qoşulması onun işinə heç bir təsir göstərmir. Bundan sonra vergi orqanları ölkədə nə qədər avtomat aparatın olduğuna və onların vasitəsilə nə qədər mal (məsələn, çay, qəhvə, çərəzlər və s.) satıldığına nəzarət edə biləcək.

# İspaniya vergilərin artırılması imkanlarını araşdırır

Maliyyə Nazirliyinin iyunun sonunda verdiyi açıqlamada bildirilir ki, ölkədə maliyyə vəziyyətinin pisləşməsi perspektivi hökuməti vergilərin artırılmasına və bir sıra fövqəladə addımların atılmasına vadar edə bilər. Nazirliyin məlumatına görə, cari ilin ilk beş ayı ərzində dövlət büdcəsinin kəsiri 3,41% artıb - bu, əvvəlcədən ölkə rəhbərliyinin müəyyənləşdirdiyi son həddin astanası deməkdir.

Büdcə gəlirlərinin artırılması üçün hökumət bir sıra mal və xidmətlərin təsnifatında dəyişiklik etməyi nəzərdə tutur - bu, bütün mal və xidmətlərin tam həcmdə ƏDV-yə cəlb olunmasını təmin edəcək. Bununla yanaşı, hökumət yanacağın satışına vergi qoymaq imkanlarına da axtarır. Ekspertlərin rəyinə görə, yaxın vaxtlarda İspaniya hökumətinin bir sıra vergi güzəştlərini də ləğv edəcəyi gözlənilir.



idman

# «Matador»lardan «Qladiator»lara ağır zərbə




Futbol üzrə 14-cü Avropa çempionatına yekun vurulmuşdur. İyulun 1-də Polşa və Ukraynanın ev sahibliyi etdiyi çempionatın final qarşılaşması keçirilmişdir. Final oyunundan əvvəl 70 min azarkeş tutan Ukraynadakı Kiyev Olimpiya Stadionunda çempionatın bağlanış mərasimi keçirilmişdir. Sonra almaniyalı müğənni Oseana Avropa çempionatının himnini səsləndirmişdir. Qeyd edək ki, Oseana bu mahnını ölkəmizdə təşkil olunacaq futbol üzrə 17 yaşadək qızlardan ibarət komandalar arasında dünya çempionatının iyulun 6-da Bakıda keçiriləcək püşkatma mərasimində də ifa edəcəkdir. Möhtəşəm bağlanış mərasimindən sonra portuqaliyalı baş hakim Pedro Kruezonun fiti ilə İspaniya və İtaliya milli komandalarının qarşılaşmasına işarə verilmişdir. Oyunun 14-cü dəqiqəsində ispaniyalı futbolçu David Silva hesabı açmışdır. Matçın 41-ci dəqiqəsində İspaniya millisinin üzvü Xordi Alba ikinci topu rəqib qapısından keçirmişdir. Maraqlı idman mübarizəsi şəraitində keçən oyunun ilk hissəsi İspaniya millisinin baş məşqçisi Visente Del Boskenin yetirmələrinin 2:0 hesablı üstünlüyü ilə başa çatmışdır. Fasilədən sonra - oyunun 84-cü dəqiqəsində ispaniyalı futbolçu Fernando Torres, dörd dəqiqə sonra isə onun komanda yoldaşı Xuan Mata növbəti iki qolun müəllifləri olmuşlar. Beləliklə, oyun 4:0 hesabı ilə İspaniya millisinin xeyrinə başa çatmış və komanda Avropa çempionatının qalibi olmuşdur. Qeyd edək ki, İspaniya millisi üççat Avropa və bir dəfə dünya çempionudur. İtaliya millisi isə 4 dəfə dünya və bir dəfə Avropa çempionatının qalibi olmuşdur.

# Boksçumuz Avropa çempionudur

Azərbaycan boksçusu Şamil İbrahimzadə (57 kq-dək) Bolqarıstanın paytaxtı Sofiyada başa çatan yeniyetmələr arasında Avropa çempionatının qalibi olmuşdur. İdmançımız qitə birinciliyinin final görüşündə Rusiya boksçusu Arkadi Plemeniçenkonu 14:9 hesabı ilə məğlubiyyətə uğratmışdır.

Azərbaycan yığması bu yarışda çıxışını bir qızıl və dörd bürünc medalla başa çatdırmışdır. Xatırladaq ki, daha əvvəl Elnur Şəfizadə (48 kq), Cavid Quliyev (60 kq), Orxan Əliyev (80 kq) və Maqomedəli Tahirov (80 kq-dan yuxarı) bürünc medala sahib olmuşdular.

# Gənc gimnastlarımızın ardıcıl qələbələri

*İtaliyanın Turin şəhərində bədii gimnastika üzrə beynəlxalq turnir başa çatmışdır. Turnirdə üç yeniyetmə Azərbaycan idmançısı iştirak etmişdir*

Azərbaycan Gimnastika Federasiyasının mətbuat xidmətindən bildirmişlər ki, 8 yaşlı Zərniyar Əliyeva hamıdan yaxşı nəticə göstərərək iplə yarışın qalibi olmuş, əşyasız hərəkətlərdə və çoxnövçülükdə ikinci yeri tutmuşdur. Onun yaşıdı Arzu Cəlilova topla turnirin qalibi olmuş, Zöhrə Ağamirova gümüş medal qazanmışdır.

Rusiyanın Krasnodar şəhərində keçirilmiş turnirdə Ləman Hacıyeva və 9 yaşlı Aydan Ağayeva öz yaş qruplarında qalib olmuşlar. Onların komanda rəfiqələri - 8 yaşlı Lalə və Diana Kramarenko bacıları, müvəfiq olaraq, gümüş və bürünc mükafatlar almışlar.

İstanbulda keçirilən turnirdə isə Aydan və Lalə, habelə digər gimnast qızlar yenə də yarışların mükafatlarını qazanmışlar. Belə ki, Ağayeva halqa hərəkətlərdə qələbə qazanmış, əşyasız turnirdə 3-cü yeri tutmuş, Kramarenko isə əşyasız hərəkətlərdə birinci olmuşdur. Ləman Dadaşlı öz yaş qrupunda qızıl medal qazanmış, onun 9 yaşlı adaşı Ləman Hüseynova isə topla hərəkətlərdə qalibi, əşyasız hərəkətlərdə ikinci yeri tutmuşdur. Nataliya Quliyeva lentlə hərəkətlərdə birinci yeri tutmuş, topla hərəkətlərdə gümüş medal qazanmışdır. 12 yaşlı Simarə Cəfərova isə halqa ilə hərəkətlərdə ən yaxşı nəticə göstərmiş, topla hərəkətlərdə üçüncü olmuşdur. Zeynəb Hümbətova çoxnövçülükdə, 10 yaşlı Darya Sorokina topla, Mədinə Mustafayeva və 12 yaşlı Mədinə Əhmədova isə dairə ilə ikinci nəticə göstərmişlər.

krossvord



**Yuxarıda aşağı:** 1.Qız adı; 2.Avtomobil markası; 3.Alman şahmatçısı, qrossmeyster (2001); 5.RF-də şəhər; 6.Roma mifologiyasına görə dan şəfəqi ilahəsi; 9.Amerika astronomu. Qalaktikaların yeni təsnifatını təklif etmişdir; 12.ABŞ-da ştat; 13.Şirniyyat; 14.Çar ordusunda hərbi rütbə. Əsasən, atlı dəstənin aşağı rütbəli zabitlərinə (kazak dəstəsindən başqa) verilirdi; 16.Əvəzçıxma; 18.ABŞ-ın 44-cü prezidentinin soyadı; **Soldan sağa:** 4.Tamaşalar arasında fasilə; 7.Məşhur sovet estrada aktyoru, rejissoru və yumoristinin soyadı; 8.Alman mənşəli amerikalı aktrisa və müğənninin soyadı; 9.Bir qrup dövlət tərəfindən hər hansı dövlətə qarşı qoyulan iqtisadi qadağa; 10.Avropada çay; 11.Klassik özbək şairi, «Xəmsə» müəllifi; 15.Roma imperatoru. Antoninlər sülaləsinin banisi; 17.Yunan mifologiyasında ikinci nəsil tanrısı, Zevsin və Letonun oğlu; 19.Günəş sisteminin planetlərindən biri; 20.Afrikanın şimalında yerləşən böyük səhra; 21.Ətraf mühit, şərait.

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Solda sağa:** 1.İran; 4.Orakul; 8.Abonent; 9.Ail; 10.Lal; 12.Əli; 13.Bern; 16.Tamada; 17.Dombra; 20.SAAB; 21.İon; 22.Xaş; 24.Ufa; 25.Papirus; 27.Partos; 28.Azad. **Yuxarıdan aşağı:** 2.Rza; 3.Neon; 4.Otello; 5.Akt; 6.Exolot; 7.Plan; 9.Averbax; 11.Lambada; 14.Ada; 15.Bor; 18.Anşlaq; 19.Kompas; 20.Sous; 23.Arpa; 25.Pat; 26.Siar.

Vergilər Nazirliyinin kollektivi Bakı Şəhər Vergilər Departamentinin
Vergi borclarının alınması idarəsinin rəis müavini
**Xosrov Aslanovun**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

**Təsisçi:** Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Baş redaktor:** Anar Əliyev anar.eliyev@taxes.gov.az

**Baş redaktor müavini:** Məti Osmanoğlu

Qeydiyyat şəhadətnaməsi №R148. VÖEN: 1300327481. H/h 12-12258-1 Atabank ASC. Kod: 507581. VÖEN: 9900006651.

M/h: 0137010032944 SWIFT BIK ATAZAZ-22.
**Ünvan:** AZ 1073, Bakı ş., Landau küç.16

**Telefon:** 012 403 87 89 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnir və «CBS Polygraphic Production» mətbəəsində çap olunur.
**Tiraj: 16000**

# Günvurma və bürküvurma

sağlam həyat tərzi



**Yay vaxtı sağlamlıqla bağlı diqqət yetirilməsi zəruri olan məsələlərdən biri də günəş şüalarından və bürküdən qorunmaqdır.**

Günvurma günəş şüalarının uzun müddət ərzində orqanizmə təsiri nəticəsində, əksər hallarda uzun müddət gün altında başıaçıq qaldıqda baş verir. Belə hallarda, gün şüalarının təsiri ilə baş beyinə qan axını artır və beyinin qan dövranı pozulur. Bu zaman zəiflik, ürəkbulanma, başgicəllənmə, güclü baş ağrıları, qulaqlarda küy, təngnəfəslik, nəbzin tezləşməsi, üşütmə, ürək bulanması və qusma, temperaturun 40ºC və daha artıq dərəcəyə yüksəlməsi kimi əlamətlər qeyd edilir. Ağır hallarda qıcolmalar və huşun itirilməsi də ola bilər. Bəzi hallarda bu əlamətlər dərhal, bəzi hallarda isə açıq günəş altında qaldıqdan bir neçə saat sonra evə gəldikdə baş verir.

Günvurmanın ilkin əlamətləri qeyd edilən kimi zərərçəkəni kölgəyə və ya sərin otağa aparmaq, onu sıxan paltarları çıxarmaq, yarıoturaq vəziyyətdə uzatmaq lazımdır (baş bədəndən yuxarıda olmalıdır).

Zərərçəkənə soyuq su verilməli, üzü və sinəsi soyuq su ilə silinməlidir. Başına, boyunun yan tərəflərinə, qoltuqaltı və qasıq nahiyələrinə (iri damarlar keçən yerlər) buz və ya bu mümkün olmadıqda soyuq su ilə kompress qoyulmalıdır. Bu zaman əl və ayaqlara xardal kağızı da qoymaq olar. Huşunu itirdiyi halda, zərərçəkənə naşatır spirti iylətmək, süni tənəffüs vermək tələb olunur.

Bürküvurma (istivurma) uzun müddət ərzində havası boğanaq olan otaqda (hamamda, saunada, avtobusda, metroda) qaldığı zaman, çölə çıxarkən havaya uyğun olmayaraq çox isti geyindiyi hallarda, çimərlikdə voleybol, futbol və s. oynadığı zaman baş verir. Uşaqların və yaşlı adamların orqanizmində istilik mübadiləsi zəif şəkildə tənzimləndiyi üçün istivurma onlarda daha tez-tez baş verir.

Bürküvurma bir çox hallarda qəflətən meydana çıxır: ilk baxışda kifayət qədər sağlam görünən insan birdən-birə əzgin olur, temperaturu 40ºC və daha artıq dərəcəyə yüksəlir, bəzi hallarda qıcolmalar, sayıqlama və hallusinasiyalar (qarabasmalar) qeyd edilir. Xəstənin sifəti əvvəlcə qızarır, sonra isə qəfildən avazıyır. Nəbz sürətlənir, çətinliklə hiss olunur; tənəffüs səthi olur, bəzən qusma qeyd edilir.

İstivurma zamanı ilk tibbi yardım günvurmada olduğu kimidir. Zərərçəkənin vəziyyəti ağırlaşarsa, dərhal «təcili yardım» çağırılmalı və ya ilk tibbi yardımdan sonra xəstə mümkün qədər tez bir zamanda yaxınlıqdakı tibb müəssisəsinə çatdırılmalıdır.

# Plastik əməliyyatlar üçün dəbdəbə vergisi

tam ciddi

***Fransada yaxın vaxtlarda plastik cərrahiyyə əməliyyatları üçün əlavə dəyər vergisinin qoyulması nəzərdə tutulur. Ölkənin sosialist hökuməti hakimiyyətə gələrkən dəbdəbə üçün vergi qoymağı vəd etmişdi, vergi orqanları isə bu verginin müxtəlif növ kosmetik əməliyyatlara da tətbiq olunmasını təklif edirlər. Qeyd edək ki, Fransada əlavə dəyər vergisinin dərəcəsi 19,6%-dir.***



Ölkənin vergi orqanları belə hesab edirlər ki, estetik məqsədlə aparılan cərrahiyyə əməliyyatlarının insan sağlamlığına dəxli olmadığına görə, bu əməliyyatlar üçün vergi qoyulması tam məqsədəuyğundur. Maliyyə Nazirliyi isə hazırda plastik əməliyyatların vergiyə cəlb olunmasının prosedurları üzərində iş aparır.

Fransanın maliyyə dairələri 2017-ci ilə qədər ölkədə iqtisadi tarazlıq yaratmaq üçün hökumətin hər il əlavə 3,9 milyard avro (4,9 milyard dollar) vəsait əldə etməsini zəruri sayırlar.

# Günəşin gücü

texnologiya



İndi alternativ enerji mənbələrindən, o cümlədən günəş enerjisindən rasional istifadə bəşəriyyətin qarşısında duran ən aktual məsələlərdəndir və bu sahədə maraqlı nəticələr əldə olunmaqdadır. Son texniki nailiyyət isə günəş enerjisi ilə təyyarənin hərəkətə gətirilməsi və qitələrarası uçuşun həyata keçirilməsidir.

Şiddətli külək əsdiyinə görə səfəri bir həftə təxirə salınmış «Solar Impulse» təyyarəsi, nəhayət, İspaniyanın paytaxtı Madriddən Mərakeşin paytaxtı Rabat şəhərinə səfərini uğurla başa çatdırmışdır. Pilot Bertrand Pikardın idarə etdiyi təyyarə gözlənilən ümidləri doğrultmuşdur. İlk uçuşunu İsveçrədən Brüsselə, ikinci uçuşunu isə keçən il Parisdən Brüsselə gerçəkləşdirmiş «Solar Impulse» bir damcı belə maye yanacaqdan istifadə etmədən bu günlərdə İsveçrədən Mərakeşə qədər 2500 kilometr məsafəni qət etməyə nail olmuşdur. Dörd motorlu «Solar Impulse» təyyarəsinin qanadlarının genişliyi 63 metrdir və 12 min günəş hücrəsinə malikdir.

## İnanmaya bilərsiniz, ancaq belədir...

- Amerikanın prezidenti Con Kennedi iyirmi dəqiqəyə dörd qəzet oxuya bilirmiş.
- Atakama səhrasına 400 ildir yağış düşmür. Yağan yağış havada buxara çevrildiyinə görə gəlib yerə çata bilmir.
- Dəvələrin 3 qaşı olur.
- Delfinlər bir gözü açıq yatırlar.
- Milçəyin sürəti saatda 8 kilometrdir.
- Yalnız dişi ağcaqanadlar sanca bilirlər. Erkək ağcaqanadların sancma qabiliyyəti yoxdur.
- Zürafənin dili 35 santimetrə çatır və bu heyvanın səs telləri olmur.
- Bir insan su içmədən və yemək yemədən ən uzağı 18 gün yaşaya bilər.
- Kəpənəklərin dadbilmə orqanı ayalarında olur.
- Kenqurular geri-geri yeriyə bilmirlər.
- Pişiklər şəkər dadını ayırd edə bilmirlər.
- Atlar fasiləsiz bir aya qədər ayaq üstə dayana bilirlər. Sürətlə qaçmaq qabiliyyətinə görə isə atların rəqibi ayılar sayıla bilər. Ayı at qədər sürətlə qaça bilir.
- Siçanların susuzluğa dözümü dəvədən daha artıqdır.
- Bayquş mavi rəngi görə bilən tək quşdur.
- 2600-ə qədər qurbağa növü var.
- Qarışqanın iybilmə qabiliyyəti ən azından itin iybilmə qabiliyyəti qədər həssasdır. Yükdaşıma qabiliyyətinə görə isə qarışqanın rəqibi yoxdur - o, öz ağırlığının 50 dəfə çox yük götürə bilir.
- Ən böyük heyvan mavi balinadır: onun uzunluğu 33 metr, ağırlığı 190 ton olur.

# ABŞ-ın Müstəqillik Günü

söz vaxtına çəkər

***1776-cı il iyulun 4-də İkinci Kontinental Konqresin prezidenti Con Henkok və Kontinental Konqresin katibi Çarlz Tomsonun Müstəqillik Bəyannaməsini imzalaması ilə yeni, müstəqil dövlətin yaradıldığı elan edildi. Müstəqillik Bəyannaməsində Şimali Amerikanın 13 Britaniya koloniyasının «artıq müstəqil dövlətlər olduğunu və Britaniya taxt-tacının bütün öhdəliklərindən imtina etdiyi» təntənəli şəkildə elan edilmişdi. Bəyannamədə ilk dəfə olaraq rəsmi surətdə yeni dövlətin - Amerika Birləşmiş Ştatlarının adı çəkilirdi.***

Bu gün Amerika Birləşmiş Ştatları əsas bayramı olan Müstəqillik Gününü qeyd edir




Müstəqillik gününü müasir amerikalıların əksəriyyəti, sadəcə, «Dörd iyul» bayramı adlandırır. Bu bayram ənənəsi özündə yürüş, atəşfəşanlıq və ailəvi pikniklərin keçirilməsini birləşdirir. Bayramın müəyyən regional xüsusiyyətləri də mövcuddur. Məsələn, 4 iyul tarixində Alyaska ştatının Syuard şəhərində Maunt-Marafon dağlarının zirvəsinə piyada yürüş keçirilir; Pensilvaniya ştatının Litits şəhərində şam festivalı təşkil olunur; Nebraska ştatının Tekums şəhərində məhkəmə binasına ABŞ Silahlı Qüvvələrində xidmət edən yerli mənşəli hər bir kəsin şərəfinə bir neçə yüz bayraq asılır.

2010-cu ildə ABŞ bayraqlarının idxal həcmi 3,2 milyon dollar (ölkənin baş dövlət simvolunun əsas istehsalçısı Çindir), ixrac həcmi isə 486 min dollar (bayraqların böyük hissəsi Meksikaya ixrac edilib) olmuşdu.

Bu gün Amerikada hökumət xalq hökumətidir; xalq tərəfindən qurulur. Konqres üzvləri, başçı, əyalət səlahiyyətliləri, qəsəbə və şəhərləri idarə edənlər xalq tərəfindən seçilir.

Konstitusiya insanların haqq və azadlıqlarını təminat altına alır. Konstitusiya hökumətin səlahiyyətlərini üç yerə ayırmışdır: Prezidentə aid olan icra hakimiyyəti, Konqresin hər iki palatasını əhatə edən qanunverici hakimiyyət və başda ali məhkəmə olmaqla, məhkəmə hakimiyyəti.

ABŞ müasir dünya iqtisadiyyatında olduqca mühüm rol oynayır. 2000-ci ildən 2011-ci ilə qədər xarici borcun həcmi 15,3 trilyon dollara qədər yüksəlib. 2011-ci ildə ABŞ-ın ÜDM-i 15,2 trilyon dollar təşkil edib. Digər ölkələrə olan dövlət borcu isə 2011-ci ildə 15,3 trilyon dollara bərabərdir.

# Atom saatı bir saniyə qabağa çəkildi

elm

İyul ayının 1-dən 2-nə keçən gecə tarixin maraqlı hadisələrindən biri baş verdi: bütün dünyada atom saatları bir saniyə qabağa çəkildi: atom saatının dünyanın yavaşıyan dövrü ilə uyğunlaşdırılması üçün ona bir saniyə əlavə edildi.

Bütün dünyadakı saatları nizamlamaq üçün istifadə edilən atom saatında indidən dəqiqləşmə aparılmasa, uzun zaman keçdikdən sonra günəşin batması indiki səhər vaxtına uyğun gələcək.

Aparılan nizamlama üçün atom saatı Qrinviç saatı ilə müqayisədə gecə saat 12-dən əvvəl bir saniyə irəli çəkildi.

Qeyd edək ki, atom saatları 1950-ci illərdən bəri kosmik araşdırmalar, astronomiya, süni peyklərin idarə olunması, naviqasiya və bir çox elmi araşdırmalarda vaxtın astronomik ölçülməsində və fiziki hesablamalarda tezlik etalonu kimi istifadə edilir. Vaxtın ölçülməsi üçün istifadə edilən bu elektron cihaz atom rezonansı əsasında işləyir. Atom saatının 100 il müddətinə xətası 3 saniyə olur.

## Fotomüsabiqə



Qoşqar Fərhadoğlu. **«Körpü»**

## Müdriklər deyib ki...



***«Həyatda ən böyük səhv özünü səhvsiz saymaqdır».***

***Yunus Əmrə (1238-1320)***

Səhifəni **Məti OSMANOĞLU** aparır | *osmanogm@yahoo.com*